Allah İman gətirən və saleh əməl sahiblərinə bağışlanmaq və böyük mükafat vədini vermişdir.
(“Maidə” surəsi, 9-cu ayə).

# İMAN

“İman” mədəni, maarif müəssisəsinin nəşri

Avqust 2013 (Şəvval 1434) 04 (80)



# Utanan üzüm olsun

*Özümdən soruşuram:*
*Pulun var?*
*Cavab gəlir: Bəs qədər!*
*Əgər ağlamadınsa*
*yaşamağına dəyər.*

*Soruşuram evin var?*
*Deyirsən, ki fərqi nə,*
*sarayda yaşayan da,*
*hər il yük daşıyan da*
*dünyadan köçəsidi –*
*Biri doymaz qızıldan,*
*birinin kirayədə*
*iki xalça bəsidi.*

*Sonrasın soruşmuram,*
*maşın, dükan, mal,*
*maya...*
*Sözümün canı budu*
*üzündə varmı həya?*

*Gül ağzını açanda,*
*it dişini qıcanda,*
*pul dalınca qaçanda*
*sahibini, Allahı bir an*
*yada salırsan?*
*Yoxsa Firon tək qızıb*
*fələkdən bac alırsan?*

*Səhərdən günbatana*
*ayağınla, başınla*
*dərd dalınca uçanda,*
*bilirəm ad-sanın var*
*əl açmazsan ayıbdı...*
*Ağız açanda necə,*
*bir zərrə utanırsan?*
*Yoxsa ki dil tökməyin*
*ayıbını danırsan?*

*Dilənçilər ikidi:*
*biri cındır içində*
*durub yol qırağında,*
*həyası papağında.*

*O biri görkəmindən*
*abırlı bir adamdı.*
*Amma hər nəyi varsa*
*dilənməklə qazanıb.*
*Xəlvətdə tərif deyib,*
*xəlvətdə əl uzadıb.*

*Özümdən soruşuram:*
*pulun, varın, çörəyin*
*halaldandı, haramdan?*
*Firondandı, Qurandan?*

*Deyirlər haram oddu,*
*halalın hesabı var.*
*Həyasız qazanılan*
*çörəyin əzabı var.*

*Demə bircə ölçü var*
*O da halal-haramdı.*
*De görüm dilənçinin,*
*üzə salıb alanın,*
*pula namaz qılanın*
*qazancında haram var?*
*Haram yoxdu, amma ki,*
*həyasından ən azı*
*bir zərrə, bir qram var.*

*Sözümün canı budu:*
*üzündə həya varmı?*
*Namaza dayananda*
*gözündən yaş çıxarmı?*

*Deyirlər haram oddu,*
*halalın hesabı var.*
*Qazandığın halalda*
*həyanın da payı var?*

*De müştəri ovunda*
*yalan var tilovunda?*
*Ruzi Allahdan gəlir?*
*ya tor qurub tutursan?*
*Dolanışıq yolunda*
*imanını satırsan?*

*Özümdən soruşuram:*
*özündən utanırsan?*
*Pəncərən döyüləndə,*
*işlərin əyiləndə*
*səbəbini qanırsan?*

*Unutma el malında*
*zərrəcə gözün olsa,*
*Allahın qabağında*
*durmağa üzün olsa,*
*ədəb-ərkandan qıraq*
*bir kəlmə sözün olsa*
*həya çıxıb əlindən,*
*ağır yük var belində!*

*Tövbə odu bu yükü*
*biryol yerə qoyasan,*
*hər işində, sözündə*
*Yaradanı sayasan.*
*Şeytan qıcıq verəndə*
*aşmayasan həddini,*
*Allahdan başqasına*
*əymәyəsən qəddini.*
*Dindar libası geyib*
*Firona yenməyəsən,*
*boynuna ip keçəndə*
*quzuya dönməyəsən.*

*Özümdən soruşuram:*
*qəbirə qoyulan gün*
*yatıb, torpaq altında*
*qəfildən ayılan gün*
*mənəm-mənəm yanında*
*həyadan nə payın var?*
*Bəndə olan qıldığı*
*namazdan da utanar.*

*O ağır sorğu günü*
*birdən özünü görsən*
*dilənçilər içində -*
*çıxmayasan özündən!*
*Şeytan şahid duracaq*
*bir ömür əl açmısan,*
*ovcuna günah qoyub*
*uşaq kimi sevinib,*
*aldanmısan, qaçmısan.*

*Həyası olan adam*
*gəzir başı aşağı.*
*Əlinə saz götürüb*
*bağlamır şər qurşağı.*
*Həyası olan adam*
*özündən utanandı.*
*Başqası yada düşməz,*
*öz halına yanandı.*

*Əzizim, bu Sən, bu can,*
*Dilim xəta, əlim qan.*
*Ovsan da gözlərimi*
*Həyamı almayasan.*

*Demirəm xəzim olsun,*
*Hər nə var bizim olsun.*
*Qoy canım dərd, cibim boş,*
*Utanan üzüm olsun.*

*Arzu Eyvazov*





# DÜNYANIN HƏQİQİ SİMASI

***İmam Əli (ə) Nəhcül-bəlağənin 114-cü xütbəsində dünyanın həqiqi simasını bizlərə tanıdır və buyurur: "Bəli, həqiqətən dünya - məhv olacaq, müxtəlif şeylərə görə əziyyət çəkən və ibrət götürüləsi bir evdir. Dünyanın məhv olacağının nişanəsi budur ki, dirini ölüm oxu ilə hədəf qərar vermişdir, sağlamı xəstəliklə ayaqdan salar. Nicat tapanı həlakətə tərəf sürükləyər. Dünya elə yeyəcəkdir ki, doyulmaz, elə içəcəkdir ki, sirab olunmaz".***

İmam Əlinin (ə) dünyaya verdiyi bu tərif necə də dəqiqdir! Bütün insanlar bunu yaxşı bilirlər. Dəfələrlə bütün varlığımızla bunu hiss etmiş və dadmışıq. Hər gün öz gözlərimizlə şahid olmuşuq. Bizimlə eyni küçədə və ya eyni masada əyləşən insanların bir gün öldüyünü görmüşük. Onların dünya çırağının necə söndüyünə şahid olmuşuq.

Müasir dövrümüzdə texnika inkişaf etdiyi üçün nəinki öz küçəmizdə yaşayanların, hətta dünyanın hər yerində havada və ya yerdə ölənlərin sayına qədər məlumatımız olur. Bir təyyarənin necə qəflətən yerə düşdüyünü, sərnişinlərinin öldüyünü öz gözlərimizlə izləyirik.

Bəli, bu, dünyanın təbiətindəndir. Heç birimiz onun hadisələrindən amanda deyilik. Hətta ən güclü insanlar belə dünyanın xəstəlikləri qarşısında tab gətirməyib, canlarını veriblər.

Bütün bu hadisələr bizə onu öyrətmək istəyir ki, ey insan, sən gərək özünü mal və sərvət toplamaqla məşğul etməyəsən. Dünyanın zahirinə aldanmayasan. Bütün gücünü ancaq mal və sərvət toplamağa sərf etsən, heyvanlar kimi yaşamış olarsan. Belə bir yaşayışın nəticəsində həsrət və peşmançılıqdan başqa bir şey qalmaz. Peşmançılıq heç bir zaman insana fayda gətirməmişdir. Axirət evində dərdimizə dərman olmayacaqdır.

Hədislərin birində Peyğəmbərimiz (s) buyurur: "And olsun o Kəsə ki, Muhəmmədin (s) canı Onun əlindədir! Əgər siz ölünün vəziyyətinə baxsanız və dediklərini eşitsəniz, onun haqqında təfəkkür etməkdən qafil olub, öz halınıza ağlayarsınız. O zaman ki, meyyitin cənazəsini götürüb apararlar, ruhu tabutun üstündə oturub fəryad çəkər: "Ey mənim qohumlarım! Ey mənim övladlarım! Dünya sizinlə oyun oynamasın, necə ki, mənimlə oyun oynadı. Dünya malını halal və haram yolla topladım. Sonra onların hamısını sizin üçün qoydum. Ona görə də o malın eyş və ləzzəti başqaları üçündür. Hesab vermək və sorğu-sual mənim üçündür. Ona görə də mənə gələndən qorxun və nəzarət edin ki, məbada sizin də halınız mənim halım kimi olsun"".

Allah Təala buyurmuşdur: "Həm yer (üzün)də (zəlzələ, qıtlıq və hərc-mərclik kimi), həm də sizin özünüzdə (yaralanmaq, xəstəlik və ölüm kimi) nə müsibət üz verirsə, Biz onu (yeri və ya sizi və yaxud həmin müsibəti) yaratmamışdan qabaq kitabda (Lövhi-Məhfuzda) qeyd edilmişdir. Həqiqətən bu (iş), Allah üçün asandır. (Bu,) əlinizdən çıxan şey üçün təəssüflənməməyiniz və sizə verilən şey üçün (yersiz) sevinməməyiniz üçün(dür)! Allah heç bir öyünən təkəbbürlünü sevmir". ("Hədid" 22-23).

Bu ayənin buyurduğu kimi, dünyada daima hadisələr baş verir. İnsanın bu hadisələrin baş verməsində heç bir rolu və təsiri olmur. Sel, zəlzələ, tufan, xəstəliklər kimi. Bu hadisələr çox sayda insanın ətəyindən yapışıb, ona ziyan vurmuşdur. Zəif imana görə və möhkəm ruhiyyəyə malik olmamağa görə insan Allaha etiraz etmiş və İlahi dərgaha gileylənməyə başlamışdır. Allah Təala bu hadisələri bizə göndərərək, bildirmək istəyir ki, dünyanın bər-bəzəyinə çox da əsir olmayaq. Onun zahirinə bel bağlamayaq. Çünki bu dünya həmişəlik yerimiz deyildir. Əgər qalıcı olsaydıq, yerimizi gözəlləşdirməyə çalışardıq.

Bu xoşagəlməz hadisələr bizə təhlükə zəngini xatırladır. Yolunu azmışları gec olmamış özünə gətirir və qəflət yuxusundan ayıldır. Dünyanın az ömürlü olmasından ibrət alıb, ona bağlanmamağımız üçün bizi xəbərdar edir.

Ona görə də bu dünyaya çox bağlanmayaq və əldən verdiklərimizə görə təəssüflənməyək. Dünya fani və keçicidir, gərək əbədi həyatımızı düşünək.




# ƏSL YOXSUL KİMDİR?

Peyğəmbəri Əkrəm (s) bir gün öz səhabələrinə buyurur: "Yoxsul və kasıb kimdir?" Cavab verirlər ki, o kəsin ki, dinarı və dirhəmi yoxdur. Həzrət (s) buyurur: "Bu cür insan kasıb və yoxsul deyildir. Yoxsul və kasıb o kəsdir ki, Qiyamətə daxil olar və öhdəsində insanların haqqı olar. Kimisə vurubdur, ya kiməsə söyüş söyübdür, başqasının haqqını zay edibdir, ya qəsb edibdir. Əgər həsənələri (yaxşı işləri) varsa, insanların haqqı qarşılığında ondan alınar və haqq sahiblərinə verilər. Əgər yaxşı əməlləri yoxdursa, haqq sahiblərinin günahlarından götürüb, onun çiyninə qoyarlar. Bu ayə də onu söyləyir: "Əlbəttə, (onlar Qiyamət günü) həm öz (günahlarının) ağır yüklərini, həm də öz ağır yüklərindən əlavə daha ağır yüklər (azdırdıqları kəslərin yüklərini) daşıyacaqlar". ("Ənkəbut" 13).

Həzrət (s) başqa yerdə buyurur: "O kəs ki, halal ruzi yeyər, başının üzərində olan mələk onun üçün istiğfar edər. O zamana qədər ki, yeməyindən ayrılar. Haram tikə insanın mədəsinə düşərsə, bütün yer və göydəki mələklər onu lənətləyərlər. Həmin tikə mədəsində olana qədər Allah ona nəzər salmaz. O kəs ki, haram tikə yeyər, Allahın qəzəbinə düçar olar. Əgər haramla rabitəsini kəsərsə, keçmişi düzəltməyə çalışar, həqiqi tövbə edərsə, Allah tövbəsini qəbul edər. Əgər tövbəsiz ölərsə, atəş ona layiqdir".

İmam Sadiq (ə) buyurur: "O kəs ki, başqasına malına və abrına görə zülm edərsə, bu iki cəhətdən ona ziyan dəyər. Ondan halallıq alması zəruridir. Əgər haqq sahibi dünyadan gedibsə, varisinə qaytarsın. Etdiyi əmələ görə peşmançılıq və həqiqi tövbə ilə zülm etdiyi işi paklasın və özünü Həzrət Haqqa qəbul etdirsin".

Nəx qəbiləsindən olan bir qoca kişi nəql edir ki, İmam Baqirə (ə) dedim: "Mən Həccacın dövründən indiyə qədər hakim olmuşam, tövbə üçün yolum varmı?" Həzrət (ə) susdu. İkinci dəfə bu sualı verdim. Həzrət (ə) cavab verdi: "Əgər hər haqq sahibinin haqqını özünə qaytarmasan, tövbən qəbul olmaz"".

Hədid Nami nəql edir: "Həzrət Sadiqdən (ə) eşitmişəm ki, buyurub: "Allahın ardınca gedin, hər bir işinizdə İlahi təqvaya riayət edin. Dininizi iffətinizlə qoruyun. Onu, işlərinizi düşməndən gizlədərək, inkişaf etdirin. Həqiqətən o kəs ki, günün sahibləri və Əhli-beytin (ə) müxaliflərinin yanında sərvət əldə etmək istəyirsə, Allah onun böyüklüyünü və abrını aradan aparar. Ona qəzəblənər. Onu həmin zalıma tapşırar. O zaman ki, sərvətlərinə zəfər çalar və ondan ixtiyarına keçirər, Allah Təala onun bərəkətinin kökünü kəsər. Əgər həmin maldan həcc, qul azad etmək, ya xeyir iş üçün istifadə edərsə, ona savab verməz".

Uca Allah bizi həqiqi yoxsullardan qərar verməsin!



# Pul nə vaxt xoşbəxtlik gətirər?

**Bəziləri belə düşünür ki, səadət və xoşbəxtliyin tək amili - sərmayə və sərvətdir. İnsan heç bir sərvəti olmadan xoşbəxt ola bilməz. Xülasə, bu puldur ki, bütün problemlərin açarıdır.**

**Quran ayələrinə nəzər salan zaman görmək olur ki, pul insana həm xoşbəxtlik gətirə bilər və həm də onun xar və zəlil olmsına səbəb ola bilər. Bir tərəfdən elə zəngin insanları müşahidə edirik ki, daima sevinc içindədirlər və o biri tərəfdən isə elə zənginlər vardır ki, pullarının sayı-hesabı yoxdur. Ancaq xoşbəxt deyildirlər və nə zaman sevincin onların qapılarını da döyməsini gözləyərlər. Mühüm olan odur ki, biz bu pula hansı niyyət və məqsədlə baxırıq.**

**Sərvətin xoşbəxtlik gətirdiyi kəslər.**

Bu qrup insanlar pula və sərvətə düzgün baxışlarla baxırlar. Onlar rahatlıq və sevinc anlayışını kamilən dərk etmiş insanlardır. Zənginlik həyatlarının xoşbəxt olmasının yalnız bir amilini təşkil edir. Onların sərvətlə rabitəsinə aid bir neçə məsələyə nəzər salaq: «Və Allahın sənə vermiş olduğundan axirət evini qazan, dünyadakı (ömür və maldan olan) nəsibini də unutma. Allah sənə yaxşılıq etdiyi kimi sən də (başqalarına) yaxşılıq et və yer üzündə fəsad dalınca düşmə. Çünki Allah fəsad törədənləri sevməz». ("Qəsəs" 77).

Bu cür zəngin insanlar dörd sahədə sərmayə qoyarlar:

1. Onların qoyduğu ilk sərmayə axirətdir. Onlar bu sərvətdən axirətlərini abad etmək üçün istifadə edərlər.

2. Qoyduqları ikinci sərmayə özləri və ailələri üçündür. Hədislərdə bu məsələyə cihad deyirlər.

3. Üçüncü sərmayə isə insanlara kömək məqsədilə olur.

4. Dördüncü sərmayə isə cəmiyyətin islahı yolunda qoyulan sərmayədir.

Bu zəngin insanların özlərini xoşbəxt hiss etməsinin səbəblərindən biri də budur ki, əllərində olan sərvətin vacib haqqını ödəyərlər. Bu xüms və zəkata aiddir. Əgər ona əməl etsələr, Həzrət Peyğəmbərin (s) xüsusi duasına layiq olarlar. Əgər bu dua onlara aid olarsa, dünya və axirətdə xoşbəxt olarlar. Allah buyurur: "(Ey ümmətin işlərinin sahibi,) onların mallarından zəkat al ki, bununla onları(n can və mallarını) təmizləyir və paklaşdırır (və artırır)san. Və onlara dua et və salam göndər ki, həqiqətən, sənin duan və salamın onlar üçün rahatlıq və xatircəmlik amilidir. Allah eşidən və biləndir". ("Tövbə" 103).



Sərvət o zaman insana xoşbəxtlik gətirər ki. Allah yolunda xərclənər. Yoxsullara və kasıblara xərclənər. Əgər pul bu sahədə xərclənərsə, sahibinə hüzur və rahatlıq gətirər. Çünki bu, Allah Təalanın vədəsidir. "Mallarını Allah yolunda xərcləyib, sonra etdikləri xərcin arxasınca minnət qoymayan və əziyyət etməyənlərin (dil yarası vurmayanların) Rəbbi yanında özlərinə layiq mükafatları vardır. (O dünyada da) onlar üçün nə bir qorxu var və nə də qəmgin olarlar". ("Bəqərə" 262).

Xülasə, demək olar ki, əgər ixtiyarınızda olan sərvətə görə rahatlıq hiss etmək istəyirsinizsə, həyatınızdan ən yaxşı şəkildə bəhrələnmək istəyirsinizsə, İlahi ayələr sizə tövsiyə edir ki, sərvətinizi bu deyilən sahələrdə istifadə edəsiniz. Çünki bu zaman həm başqalarını, həm özünüzü və həm də Allahı razı salmış olarsınız.

*Tebyan/ Deyerler.org*

# İSLAMDA İNSAN HƏYATINA VERİLƏN ÖNƏM

**Həmd olsun bizləri var edən və həyat bəxş edən Yaradana! Həyatımızı gözəlliklərlə bəzəyənə! Hər bir an, hər bir işdə bizlərə arxa olana! Həyatı bizlərə nəyinsə müqabilində deyil, Öz Lütfüylə bəxş edənə!..**

**Həyat mövzusu əslində bütün dünyanı, hər bir insanı düşündürən, narahat edən bir məsələdir: insan həyatı və bu həyata qəsd etmək, ümumiyyətlə İslam dininin həyat məfhumuna verdiyi dəyər…**

İslam - həyat dinidir. Allah bizləri ölüm üçün deyil, məhz həyat üçün yaradıb! Həm də əbədi bir həyat üçün. Əlbəttə, həyatımız dünya ilə məhdud deyil. Bununla belə, dünya həyatı bizim əbədiyyatımızın taleyini, əbədi həyatın müqəddəratını həll edən, bu həyatın məcrasını, aqibətini müəyyən edən bir həyatdır. Dinimiz dünya həyatımızı da, axirət həyatımızı da gözəl görmək istəyir və öz buyruqlarıyla bu gözəl həyatı təmin edən qaydaları açıqlayır. Dinimiz dünyaya görə axirət həyatının, yaxud da əksinə, axirətə görə dünya həyatının puç edilməsini qətiyyətlə rədd edir. Qurani-Kərimin bir ayəsində belə buyurulur:

«Ey Rəbbimiz! Dünya həyatımızda da, axirət həyatımızda da bizlərə gözəlliklər bəxş eylə!»

Dünya həyatında hər birimiz üçün Allahın bəxş etdiyi nemətlərin başında elə həyat dayanır. Hər bir insan öz həyatı haqqında düşünür, qayğılanır, öz əməllərini, hərəkətlərini, davranışlarını həyat sürmək, yaşamaq istiqamətində tənzimləyir. İslam insan həyatına olduqca böyük önəm və dəyər verir. Rəbbimiz buyurur ki, günahsız bir insanın həyatına qıymaq, onu qətlə yetirmək - bütün insanları öldürmək kimidir! Birinə həyat vermək isə - bütün insanlara həyat bəxş etmək kimidir! Həqiqətən də, heç bir ideoloji məktəb, heç bir cərəyan insan həyatını bu dərəcədə dəqiqliklə, incəliklə, zərifliklə səciyyələndirməyib.

Dünyada baş verən terror aktları, milyonlarla insan həyatına son qoyan soyqırımlar, müxtəlif məqsədlərlə həyata keçən insan qətlləri bəşəriyyətin sakit və xoşbəxt həyat sürməsinə mane olmaqdadır və bütün bunlar Allah qarşısında ən böyük günahlardan hesab edilir. Tarix boyu irqi, dini, milli və s. zəmində baş verən qanlı savaşlar, terror aktları saysız-hesabsız günahsız insanları məhv edib. Hansısa bir dini, yaxud etnik mənsubiyyətinə görə milyonlarla insan qeyri-insani işgəncələrə, təhqirlərə və qətllərə məruz qalıb.

Son zamanlar müxtəlif kütləvi informasiya vasitələrində terror kəlməsi tez-tez eşidilir və əfsuslar olsun ki, bu çirkin sözü müqəddəs dinimizin adına bağlayanlar da tapılır. Kökündə «Sülh» mənasını daşıyan İslamın adı terrorla birgə çəkilir və zehnlərdə, təsəvvürlərdə «İslam terroru» adlı bir qorxu, bir vahimə formalaşdırılır. Lakin İslam dini - hər cür terrora, günahsız insanları Allahın bəxş etdiyi həyatdan məhrum etməyə qarşı çıxır!

Qurani-Kərimdə Uca Rəbbimiz müsəlmanlara insanlara sülh, əmin-amanlıq, xeyir və qardaşlıq sevgisi göstərmələrini əmr edir. Əlbəttə ki, İslam əxlaqı terror mənbəyi ola bilməz, çünki terrorizm probleminin həlli məhz İslam dinində öz ədalətli həllini tapır. Sevimli peyğəmbərimiz həzrət Məhəmməd (s) buyurur:

«Qiyamət günü insanlar arasında, barəsində ilk hökm veriləcək şey - qan olacaqdır!»

Allah İslam dinini bəşəriyyətə həqiqət, sülh və xoşbəxtlik yolunu göstərmək üçün nazil edib. İslam əxlaqının əsasları - mərhəmət, fədakarlıq, insanlara qarşı xoş niyyətdə olmaq, bağışlama, ədalət və bu kimi ülvi keyfiyyətlərdir.

Qurani-Kərimdə Allah müsəlmanlara hətta onlara pislik edən şəxslərə qarşı belə yaxşılıqla cavab verməyi buyurur:

«Yaxşılıqla pislik eyni ola bilməz! (Ey mömin kimsə!) Sən pisliyi yaxşılıqla dəf et! (Yəni, qəzəbə səbrlə, cəhalətə elmlə, xəsisliyə comərdliklə, cəzaya bağışlamaqla cavab ver!) Belə olduqda aranızda düşmənçilik olan şəxsi sanki yaxın bir dost görərsən!» (Fussilət surəsi; 34-cü ayə)

Qan tökmək, insanlar arasında müharibələr və münaqişələr yaratmaq Allah-Təalanın lənətləndirdiyi çox böyük bir günahdır. Günahsız insanın öldürülməsi İslam dinində ən böyük günahlardan biri sayılır. Maidə surəsinin 32-ci ayəsində oxuyuruq:

«…Hər kəs qisas haqqı olmadan, yer üzündə fitnə-fəsad törətməyən kimsəni öldürsə bütün insanları öldürmüş kimidir. Hər kəs kimsəni diriltsə bütün insanlara həyat bəxş etmiş kimidir.»

İnsan həyatının yüksək dəyəri və başqa tərzdə düşünən insanlara qarşı hörmətlə yanaşma Quranda yad edilir və həzrət Məhəmməd (s) Peyğəmbərin zamanından İslam dininin mövcud olduğu tarix boyu yüksək hörmətlə qarşılanır. Həzrət Peyğəmbər var gücüylə günahsız, dinc insanların həyatlarını müdafiə edirdi. Sevimli



peyğəmbərimiz buyurur:

«İnsanların ən dikbaşı, onu öldürmək niyyəti olmayan günahsız birisini öldürən və ya onu vurmayan birisini vurandır.»

Tarixin şahidi olduğu kimi, Peyğəmbərimiz heç vaxt müharibələrə başlamayıb və o, hər zaman yalnız öz ümmətini hücum və təcavüzlərdən qorumaq, müdafiə olunmaq məqsədilə savaşa girib. Həzrət Peyğəmbər müdafiə olunmaq üçün müharibələrə girdikdə belə, o, hər kəsə buyururdu ki, dinc əhaliyə və günahsız insanlara zərrə qədər də ziyan vurulmasın, onların evləri dağıdılmasın, müqəddəs yerlərə, xristian kilsələri və yəhudi sinaqoqlarına ehtiramla yanaşılsın. Savaş zamanı hətta bitkilərə, bizi əhatə edən təbiətə belə ziyan vurulmasın. Nəql edilən bir hədisdə peyğəmbərimiz belə buyurur:

«Əgər bütün dünya məhv olsa belə, Allahın yanında onun əhəmiyyəti - nahaq yerə tökülən qandan daha azdır.»

Buna görə də, bu cür qətllərə, terror aktlarına «islam terroru» adı vermək, yaxud onlara İslam donu geydirmək yolverilməzdir. Çünki günahsız insanı din yolunda öldürmək mümkün deyil! Allaha olan iman və sevgi yalnız mərhəmət, sülh və həyat tələb edir!

İslam dini insan həyatını beləcə yüksək dəyərləndirir və dini və ya milli mənsubiyyətindən asılı olmayaraq, insana qarşı cinayət həyata keçirməyə icazə vermir. Müharibə yalnız elə insanlara qarşı yönəlməlidir ki, onlar əllərinə silah alıb digərlərini öldürməyə, onların torpağına, namusuna, ləyaqətinə, dininə-imanına təcavüz etməyə cəhd edir, var-dövlətini əlindən almaq istəyir. Bir sözlə, dinimizə görə, yalnız müdafiə xarakterli savaşa yol verilir və təcavüz halı baş verdikdə müdafiə olunma Allah qarşısında müqəddəs vəzifə hesab edilir. Qurani-Kərim dinc insanların öldürülməsini isə Allaha və Onun peyğəmbərinə qarşı olan savaş kimi dəyərləndirir. Belə qətllərin qurbanları qadınlar və uşaqlar olduqda isə bu günah daha da ağırlaşır. İslam dini qadın və uşaqların müharibə zamanı belə öldürülməsinə yol vermir.

Dinimiz hər bir halda ədalətə sarılmağı, ədalətlə davranmağı əmr edir. Rəbbimiz Maidə surəsinin 8-ci ayəsində belə buyurur:

«Ey iman gətirənlər! Hər hansı bir camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Allah etdiklərinizdən xəbərdardır!»

Beləliklə, Qurani-Kərim insan həyatına qəsd etməyi qadağan edir. Təəsüflər olsun ki, günümüzdə bir çox valideynlər hələ dünyaya gəlməyən övladlarının «canilərinə» çevrilir. Ana bətnində olan kiçicik bir insan həyatına qəsd edilir. Halbuki müqəddəs Kitabımızın Ənam surəsinin 151-ci ayəsində buyurulur:

«…Allah sizə bunları haram edir: Ona heç bir şərik qoşmayın, ata-anaya yaxşılıq edin, kasıblıq üzündən uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzinizi Biz veririk.»

İsra surəsinin 31-ci ayəsində isə buyurulur:

«Yoxsulluqdan qorxub (cahiliyyət dövründə olduğu kimi) övladlarınızı öldürməyin. Biz onların da, sizin də ruzinizi veririk. Onları öldürmək həqiqətən böyük günahdır!»

İslam bütün digər dinlər və siyasi-ideoloji sistemlərdən daha çox insan qanını müqəddəs sayır və insan həyatını hər cür vasitələrlə müdafiə edir. Allah-Təala özünəqəsd edən insanı da Öz rəhmət və bağışlanmasından məhrum edir. Rəbbimiz Nisa surəsinin 29-cu ayəsində buyurur:

«Ey iman gətirənlər! Bir-birinizin razılığı ilə olan alış-verişdən başqa bir-birinizin malını haqsız yerə yeməyin və özünüzü öldürməyin. Həqiqətən Allah həmişə sizinlə mehribandır.»

Beləliklə, intihar da dinimizə görə qəti şəkildə qadağan edilir. İmam Baqir (ə) bu məsələyə münasibət bildirərək buyurur:

«İmanlı şəxs hər bəlaya giriftar olar və hər ölümlə ölər, ancaq intihar etməz».

İslam insanın özünü öldürməsilə başqasını öldürməsi arasında fərq qoymur və insanları qətlə deyil, həyata sövq edir.

Dinimizin adını ləkələməyə çalışanlar isə din adıyla insanları qan tökməyə sövq edirlər. Belə bir həssas dövrdə hər birimiz ayıq-sayıq olmalı, məkrli insanların məkrli planlarının həyata keçməsinə yol verməməliyik! Quranın öyrətdiyi kimi, insanlara ölüm deyil, həyat bəxş etməyə çalışmalıyıq.

Elşən Mustafaoğlu, «MS»



# HARAM YEMƏYİN TƏSİRLƏRİ

***Bir şəxs həzrət Peyğəmbərin (s) yanına gəlib ərz etdi: "Dualarımın qəbul olmasını istəyirəm." Əziz Peyğəmbərimiz (s) buyurdu: "Yediklərin pak olsun, qarnına haram qida daxil etmə." Başqa bir hədisdə həzrət (s) buyurur: "Duasının qəbul olmasını istəyən şəxs qidasını, gəlir yolunu və qazancını pak etsin."***

Haram yeməyin iki növ təsiri var: dünya və axirət təsirləri.

## a) Dünyəvi təsirlər

**1. Duaların qəbul olunmaması**

Rəvayətlərdən məlum olur ki, haram yeyənin duaları qəbul olunmur. Qüdsi bir hədisdə deyilir: "Yalnız haram yeyənin duası mənim dərgahıma yetişməz." Başqa bir hədisdə buyurulur: "Allah həzrət İsaya (ə) vəhy etdi ki, Bəni-İsrail zalımlarına de: "Bir halda ki, haram maldan istifadə edirsiniz, evlərinizdə büt var, məni çağırmayın. And içmişəm ki, məni çağıranın duasını qəbul edim. Haramxorların duasının qəbul etməyim onlara lənət və nifrindən ibarətdir." İslam Peyğəmbəri (s) buyurur: "Bir tikə haram yeyənin duası 40 gün qəbul olunmaz." Rəvayətdə deyilir: "Həzrət Musa (ə) ağlar halda əllərini səmaya açıb dua edən bir şəxs gördü. Allah tərəfindən Musaya vəhy olundu: "O nə qədər çalışsa da duası qəbul olunmaz. Çünki onun qarnında haram var..."

Bir şəxs həzrət Peyğəmbərin (s) yanına gəlib ərz etdi: "Dualarımın qəbul olmasını istəyirəm." Əziz Peyğəmbərimiz (s) buyurdu: "Yediklərin pak olsun, qarnına haram qida daxil etmə." Başqa bir hədisdə həzrət (s) buyurur: "Duasının qəbul olmasını istəyən şəxs qidasını, gəlir yolunu və qazancını pak etsin."

**2. Saleh əməllərin qəbul olunmaması**

Təqva saleh əməllərin qəbulu üçün şərtdir. Haramxor insan ilahi təqvanı ayaq altına aldığından onun saleh əməlləri qəbul olunmur. Çoxsaylı rəvayətlərdə bəyan olunur ki, haramxorun namazı, həcci, sədəqəsi qəbul deyil. İslam Peyğəmbəri (s) bu barədə buyurur: "Haram yeyib ibadət etmək çınqıl daş üstə ev tikmək kimidir." Başqa bir rəvayətdə həzrət Peyğəmbər (s) digər səmavi kitablardan belə nəql edir: "Haram yeyib xeyir iş görmək xəlbirlə su daşımaq kimidir."

Bir rəvayətdə İslam Peyğəmbəri (s) buyurur: "Bir tikə haram yeyənin 40 gecə namazı qəbul olmaz. Bədəninin haramdan yaranan yeri oda daha çox layiqdir. Çünki bir tikədən də ət yaranır." Həzrət Peyğəmbər (s) haram tikənin həccə təsirini elə şəkildə bəyan edir ki, insan lərzəyə gəlir. Həzrət (s) buyurur: "Hər kəs haram malla həccə getsə və "ləbbəykə Allahummə ləbbəykə" deyərək Allahı eşitdiyini bildirsə, Allah ona buyurar: "La ləbbəykə və la sə`dəykə", yəni bu həcc sənin özünün olsun!"

İslamda sədəqə ən üstün əməllərdən sayılır. Amma şərt budur ki, insan halal maldan sədəqə versin. Haram maldan sədəqə verən insan haqqında Peyğəmbər (s) buyurur: "Bir şəxs haram qazanc əldə etsə Allah onun sədəqəsini qəbul etməz, qul azad etməyin, həcc və ümrəsinin savabını verməz. Allah gördüyü işlər həddində ona günah yazar. Ölümündən sonra ondan qalan şeylər oda doğru hərəkətində azuqəsi olar."

**Ağzına qoyduğun haram bir tikə**
**Əlbət ki, ruhuna salası ləkə.**
**Əlinlə əkdiyin bu şər toxumu**
**Şəksiz, savabların qırar çoxunu**
**İbadətlərini alar əlindən,**
**Din evinə dolar ağrı, qüssə, qəm.**
**Çeşidli süfrəyə uzadanda əl**
**Yaxşı düşün, sonra qalma məəttəl.**

**3. Daşqəlblilik**

İslam elmlərində və təcrübi elmlərdə sübuta yetirilmişdir ki, insanın qəbul etdiyi qida təkcə onun bədəninə yox, həm də ruhuna təsir göstərir. Zəhərli qida insan orqanizminə mənfi təsir göstərdiyi kimi haram tikə də insan ruhunu puça çıxarır. Bütün niyyətlər insan qəlbindən qaynaqlanır. Qəlb insanın komandanlıq mərkəzidir. Pak qəlb xeyir işlərə, çirkin qəlb isə haram işlərə sövq edir.

Kərbəlada imam Hüseyn (ə) İbn Səd qoşununa üz tutaraq buyurur: "Qarınlarınız haramla dolub, qəlbləriniz möhürlənib. Vay olsun sizə, yoxsa insafınız kəsilib, eşitmək gücünüz yoxdur?!"

**4. Tövbənin qəbul olmaması**

Haram malın mənfi təsirlərindən biri də tövbənin qəbul olunmamasıdır. "Nəhcül-bəlağə"də nəql olunur ki, bir

şəxs həzrət Əlinin (ə) hüzurunda diqqət yetirmədən “əstəğfirullah” söylədi. Həzrət (ə) buyurdu: “Anan əzanda otursun, bilirsənmi istiğfar nədir? İstiğfarın altı şərti var...” Həzrət Əli (ə) istiğfarın (tövbənin) beşinci şərtini belə bəyan edir: “(Beşinci şərt budur ki,) haramdan yaranmış ətini nigarançılığınla əridəsən. Belə ki, onun yerinə təzə ət gələ.”

**5. İlahi tövfiqdən (yardımdan) məhrum olmaq**

Böyük şəxsiyyətlərdən birinin dilindən belə nəql olunur: Qəribə bir haldaydım. Gecə namazından, namazı əvvəl vaxtda qılmaqdan, ümumiyyətlə, ibadət ləzzətindən məhrum olmuşdum. Düşünürdüm ki, axı nə üçün? Nə qədər ağlayırdımsa, nalə çəkirdimsə təsiri olmurdu. Nəhayət, yuxuda mənə deyildi: “Haram xurma yeyən kəs ibadətdən ləzzət almaz.” Yuxudan oyandım. Yadıma düşdü ki, dükandan xurma alanda xurmaların arasında biri yetişməmişdi. Mən dükan sahibindən icazəsiz həmin xurmanı dəyişdim.”

**6. Digər günahlara sövq olmaq**

Mehdi Abbasi xilafəti dövrünün tanınmış qazisi Şərik ibn Abdullah haqqında yazırlar ki, bu şəxs öncə təqvalı bir fəqih olmuşdur. Mehdi Abbasi onu həbs etdirib, sonradan azad olmaq üçün üç yoldan birini seçməyi təklif etmişdir: ya qazilik mənsəbi, ya xəlifə övladlarının tərbiyəsi, ya da xəlifənin təamlarından dadmaq. Şərik xəlifənin son təklifini seçmiş və o biri təklifləri münasib saymamışdı. Xəlifə öz aşbazına göstəriş verir ki, çeşidli təamlar hazırlasın. Xəlifənin süfrəsindən təam dadan fəqih sonradan dəyişmiş, həm qaziliyi, həm də xəlifə övladlarının tərbiyəsini öhdəsinə götürmüşdü.

**7. Bərəkətsizlik**

Haram tikə malın bərəkətini aparır. İmam Sadiq (ə) buyurur: “Qeyri-şəri yolla mal əldə edən insana tikili, su və torpaq hakim olar. (Var-dövlət onu məhv edər)” Yəni bu şəxs var-dövlətini suya-torpağa sərf edər və heç bir fayda götürməz. Sanki torpağa əmr olunub ki, onun var-dövlətini udsun.

Digər bir rəvayətdə imam Sadiq (ə) buyurur: “Çox haram yemək insanı ruzidən məhrum edər.”

Həzrət Əli (ə) buyurur: “Çox olar ki, bir tikə insanı çox tikədən məhrum edər.”

## b) Axirət təsirləri

Müxtəlif rəvayətlərdə haram yeyənə müxtəlif axirət əzabları vəd olunur. Onlardan bəzilərini nəzərdən keçirək:

**1. Haramxorun daxilində od qalanması**

İslam Peyğəmbəri (s) buyurur: “İnsanın oğurladığı şey qiyamət günü oddan olan boyunbağı ilə boynundan asılar. İnsan haram yesə qəbirdən qaldırıldığı vaxt daxilində od alovlanar. Bu od şölələrindən hamını qorxudan səs ucalar. Nəhayət, Allah bəndələr arasında hökm verər.”









**2. Behiştə girişə qadağa**

Əziz İslam Peyğəmbəri (s) buyurur: “Kəb ibn Əcrə, haramdan yaranmış ət heç vaxt behiştə daxil olmaz.” Digər bir rəvayətdə həzrət (s) buyurur: “Əti napak olan kəs heç vəchlə behiştə daxil olmaz. (Napak ətin nə olması barədə soruşulduqda həzrət (s) buyurur.) Elə bir ət ki, haramdan cücərmiş (yəni, yaranmış) olsun.”

**3. İslam Peyğəmbəri (s) haramxor insanın ətini oda layiq bilir**: “Əti haramdan cücərmiş kəsə od daha çox layiqdir.”

**4. Hesab zamanı pərişanlıq**

Həzrət Peyğəmbər (s) haram yeməyi hesab zamanı qəm-qüssə səbəbi kimi təqdim edir: “Dörd şeyə sevinən insan dörd şeyə qəmlənər... Haram mal yeməkdən xoşhal olan insan hesab zamanı qəm-qüssəyə qərq olar.”

**5. Sirat körpüsünün atəşin itləri ilə üzləşmə**

Həzrət Peyğəmbər (s) buyurur: “Sirat körpüsündə atəşin itlər var. Boynunda haram bir dirhəm olan kəsin iki ayağından bu itlər yapışar. Belə ki, bu şəxs bir addım ata bilməz. Nəhayət, savab əməllərindən həmin dirhəmin sahibinə olan borcunu qaytarar. Əgər qaytara bilməsə, ağır günah yükü onu oda çəkər.”

# 12 İMAM HƏDİSİ

Əhli-beytin (ə) mövqeyini İmamət və vilayətlə əlaqələndirən və bir sıra şübhəli sualları cavablandıran hədislərdən biri də "on iki İmam" hədisidir. Bu hədis İslamın ən məşhur hədislərindəndir. O səhih və mötəbər kitabların əksəriyyətində nəql olunmuşdur. Bu hədis barəsində əksər alimlər yekdil fikirdədirlər. Əvvəlcə, hədisin sənədini, sonra isə onun məzmununu qısa şəkildə araşdıracağıq:

Bu hədisi Peyğəmbərin (s) səhabələrindən bəziləri nəql etmişdir. Onun əksər raviləri Cabir ibn Sumrəyə, ondan sonra Abdullah ibn Məsuda, Abdullah ibn Ömərə, Abdullah ibn Əmr ibn Asa, Əbdül-Məlik ibn Ümeyrə, Əbul-Cildə və Əbu Cüheyfəyə istinad edir. Hədis hafizləri onu ondan artıq kitabda qeydə almışlar. İndi isə diqqətinizi həmin hədisin bir hissəsinə yönəldirik:

1. "Səhihi-Müslim" kitabında Cabir ibn Sumrənin belə dediyi nəql olunur: "Allahın Rəsulundan (s) eşitdim ki, belə buyurdu:

**"On iki xəlifə müsəlmanlara rəhbərlik edən vaxta qədər İslam izzətli olacaq."** Sonra o həzrət bir söz dedi ki, mən başa düşmədim. Atam Peyğəmbərə (s) yaxın olduğundan, ondan "Peyğəmbər (s) nə buyurdu?" deyə soruşduqda, atam (Peyğəmbərin (s) belə buyurduğunu) dedi: **"Onların hamısı Qüreyş tayfasındandır!"**

(Səhihi-Müslim", 3-cü cild, səh. 1453, Beyrutun "Daru ihyai-turrasil-ərəbi" çapı)

Həmin kitabda başqa bir sənədlə Cabir ibn Abdullah Ənsaridən

"La yəzalul-İslamu əzizən" (İslam dini həmişə əziz olacaqdır) ifadəsinin yerində

"La yəzalu hazəl-əmr" (Bu iş həmişə davam edəcəkdir) ifadəsini nəql etmişdir.

Başqa bir hədisdə isə "La yəzalu hazəd-din əzizən mənİən" (Bu din həmişə izzətli və yenilməz olacaqdır), deyə buyurulmuşdur.

Bir hədisdə Amir ibn Səd ibn Əbi Vəqqasdan belə nəql edilir: "Cabir ibn Sumrəyə məktub yazıb bildirdim ki, Peyğəmbəri-əkrəmdən (s) eşitdiyi hədisləri mənə yazıb göndərsin. O da mənə belə yazmışdı: "Mən Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: "İslam dini qiyamətə qədər yaşayacaq və mütləq sizə Qüreyş tayfasından olan on iki xəlifə rəhbərlik edəcək!" Həmçinin belə buyurdu: "Müsəlmanların kiçik bir qismi "Ağ" evi, "Kəsra" evini, yaxud da "Kəsra" övladlarını fəth edəcək!" Sonra xəbərdarlıq etdi: "Qiyamətdən qabaq yalançılar meydana çıxacaq, onlardan uzaqlaşın!"

( "Səhihi-Müslim", 3-cü cild, səh. 1453)

Yenə "Səhihi-Müslim"də başqa bir "təriq"lə (ravilərin sırası) Cabir ibn Abdullah Ənsaridən belə nəql olunur: **"On iki xəlifənin hökuməti durduqca, bu din izzətli, qüdrətli və yenilməz olacaq!"** Bu hədisin sonunda da **"Kulluhum min Qureyş!"** ("Onların hamısı Qüreyş tayfasındandır") ifadəsi görünür.

("Səhihi-Müslim", 3-cü cild, səh. 1453)

2. Bu hədis "Səhihi-Buxari" kitabında oxşar ifadələrlə Cabir ibn Abdullah Ənsarinin Peyğəmbəri-əkrəmdən (s) belə eşitdiyi nəql olunmuşdur:

**"Məndən sonra on iki əmir olacaq." Sonra həzrət bir söz buyurdu ki, mən eşitmədim. Atam dedi ki, həzrət deyirmiş: "Onların hamısı Qüreyş tayfasındandır!"** ("Səhihi-Buxari", 3-cü cild, səh. 101, Beyrutun "Darul-ceyl" çapı)

3. Bunun oxşarı "Səhihi-Termizi" kitabında da azacıq fərqlə qeyd olunmuş və Termizi onu nəql etdikdən sonra yazmışdır: "Bu hədis "həsən" və səhihdir!"

("Səhihi-Termizi", 4-cü cild, səh. 501, Beyrutun "Daru ehyai-turrasil-ərəbi" çapı, "ma caə fil-xüləfa" bölümü, hədis: 22223)

4. "Səhihi-Əbi Davud" kitabında da bu hədis azacıq fərqlə qeyd edilmişdir. Hədisin deyilişindən başa düşülür ki, Peyğəmbər (s) onu böyük bir cəmiyyət qarşısında buyurmuşdur. Rəvayətdə göstərildiyi kimi, Peyğəmbər (s) "Bu din on iki xəlifənin rəhbərlik etdiyi vaxta qədər, həmişə izzətli, qüdrətli və yenilməz olacaqdır" deyə buyurduqda, camaat uca səslə "Allahu-Əkbər" demişdir.

("Səhihi-Əbi Davud", 4-cü cild, "Əl-Mehdi" bölümü, Beytutun "Daru ehyais-sünnətin-nəbəviyyə" çapı)

5. "On iki İmam" hədisi Əhməd ibn Hənbəlin "Müsnəd" kitabının bir neçə yerində qeyd edilmişdir ki, bə'zi təhqiqatçılar onu otuz dörd vasitə ilə Cabirdən nəql etmişlər. ("Müntəxəbul-əsər" kitabının 12-ci səhifəsinə və "Ehqaqul-həqq" kitabının 13-cü cildinə müraciət edin!)




Bir yerdə Məsruqun belə dediyini görürük: “Biz Abdullah ibn Məsudun yanında oturmuşduq, o bizə Quran oxuyurdu. Bir nəfər ondan “Heç Peyğəmbərdən (s) öyrənmisinizmi ki, bu ümmətə neçə nəfər xəlifəlik edəcəkdir?” deyə soruşduqda, “İraqa gəldiyim vaxt-dan səndən başqası bu sualı soruşmamışdır!” deyərək belə əlavə etdi: “Bəli, bunu Allahın Rəsulundan (s) soruşduqda, buyurdu:

**“Bəni-İsrailin (saleh) rəhbərlərinin sayı qədər, on iki nəfərdir!”**

(“Müsnədi-Əhməd ibn Hənbəl”, 1-ci cild, səh. 398, Beyrutun “Darus-Sadiq” çapı)

Yuxarıda qeyd etdiyimiz hədislər əhli-sünnənin ən məşhur və mötəbər kitablarından əlavə, digər kitablar-da da qeyd edilmişdir. Məqsəddən yayınmamaq üçün onların kiçik bir qisminə işarə edəcəyik. Əlavə izahat üçün “Ehqaqul-həqq”, “Fəzailul-xəmsə”, “Müntəxəbul-əsər” və digər kitablara müraciət edə bilərsiniz.

### “ON İKİ İMAM” HƏDİSİNİN MÖHTƏVASI

Bu rəvayətlərin ifadələri müxtəlif olduğundan, bəzilərində

**“isna əşərə xəlifətən”** (on iki xəlifə), bəzilərində “isna əşərə əmirən” (on iki əmir) və bəzilərində isə on iki nəfərin vilayət və hökumətindən söz açan “ma vəlahum isna əşərə rəculən” (on iki nəfərin vilayəti) ifadələri qeyd olunmuşdur. Bu rəvayətlərin əksəriyyətində on iki nəfərin xəlifəliyindən söz açılır. Bəzi rəvayətlərdə təkcə onların neçə nəfərdən ibarət olduğuna işarə edilərək buyurulur: “İsna əşərə kə-iddəti nuqəbai Bəni-İsrail!” (Onlar Bəni-İsrail tayfasının (saleh) rəhbərlərinin sayı qədər, on iki nəfərdirlər!) Bəzilərində isə, “on iki başçı” ifadəsi işlədilmişdir.

Məlum olduğu kimi, bütün bunlar xilafət, vilayət və hökumət işlərinə aid olub, nəticə etibarilə eyni mənanı ifadə edir.

Digər tərəfdən, bəzi rəvayətlərdə

“Bu din həmişə qüdrətli və yenilməz olacaqdır...!”, bəzilərində

“Mənim ümmətimin işi həmişə məsləhət üzündəndir...”, bəzilərində

“Bu ümmətin işi həmişə uğurlu olacaqdır, əgər...!”, bəzilərində

“Bu ümmətin işi yaxşılığa doğru olacaqdır, əgər...”, bəzilərində də

“Heç kəs bu ümmətə zərər yetirə və onları xar edə bilməz” kimi ifadələr verilmişdir. Bu qəbildən digər rəvayətlər də vardır. Onlarda da bir növ bu həqiqətə toxunulmuş və İslam ümmətinin qüdrəti, qələbə və uğurundan söhbət açılmışdır. Bundan əlavə, bu rəvayətlərin əksər ravi silsilələri fərqlidir.

Üçüncüsü isə bu rəvayətlərdə “kulluhum min Qureyş” (Onların hamısı Qüreyş tayfasındandır) ifadəsi gözə çarpır. Yalnız Qunduzi Hənəfinin “Yənabiul-məvəddət” kitabında nəql etdiyi bir rəvayətdə Peyğəmbər (s) belə buyurmuşdur: “Kulluhum min Bəni-Haşim!” (Onların hamısı Bəni-Haşimdəndir!) O da bunu “Məvəddətül-qurba” kitabından Cabir ibn Səmərədən nəql etmişdir.

(“Yənabiul-məvəddət”, səh. 445, 77-ci bölüm)

Bu hədislərin çoxunda göründüyü kimi, Peyğəmbəri-əkrəm (s) sonuncu cümləni bəyan edərkən səsini alçalda-raq onu məhrəmanə buyurmuşdur. Aydın olur ki, həmin vaxt orada Peyğəmbərin (s) Qüreyş, yaxud Haşimi tayfasından olan on iki nəfər canişinin elanı ilə müxalif olanlar varmış. Bu səbəbdən həzrət sonuncu cümləsini məxfiyanə, astadan bəyan etmişdir!

Ümumiyyətlə, bu hədis məşhur, birinci dərəcəli mənbələrdə nəql olunmuşdur və bütün İslam alimləri onu qəbul etmişlər. Bu hədisin mənası Əhli-beyt (ə) məktəbi ardıcıllarına tam aydındır. Onun məfhumunu yalnız on iki məsum, günahsız İmama aid edirlər. Amma onun izahı digər İslam məzhəbləri ardıcılları üçün qaranlıq məsələyə çevrilmişdir. Belə ki, digər məzhəblərin alimləri bu haqda aydın bir söz deməmişlər. Bunun səbəbi də məlumdur; çünki ilk xəlifələrin sayı dörd, Əməvi xəlifələrinin sayı on dörd, Abbasi xəlifələrinin sayı otuz yeddi nəfərdir. Bu rəqəmlərin heç biri Peyğəmbərin (s) buyurduğu on iki nəfər xəlifə ilə uyğun gəlmir. Burada biz Hafiz ibn Süleyman ibn İbrahim Qunduzi Hənəfinin etirafını həqiqətə uyğun bilməliyik. Belə ki, o, “Yənabiul-məvəddət” adlı məşhur kitabında yazır:

“Bəzi tədqiqatçılar Peyğəmbərdən (s) sonrakı on iki nəfərdən danışan hədislərin məşhur, eyni zamanda çoxsaylı vasitələrlə nəql olunduğunu bildirmişlər. Za-man ötdükcə məlum olacaq ki, Allahın Rəsulunun (s) bu hədisdə məqsədi on iki nəfərdən ibarət Əhli-beyt İmamlarıdır. Bunu o həzrətdən sonrakı xəlifələrə tətbiq etmək olmaz və səbəbi də aydındır (çünki onların sayı dörd nəfərdir). Həmçinin onu Əməvi hakimlərinə aid etmək olmaz. Çünki onların sayı on iki nəfərdən çoxdur. Digər tərəfdən Ömər bin Əbdül-Əziz istisna olmaqla,



onların hamısı aşkar zülm və haqsızlıqla tanınmışlar. Həm də onlar Bəni-Haşim tayfasından deyillər. Halbuki bu hədisin bəzi mətnlərində on iki xəlifənin Bəni-Haşim tayfasından olduğu nəql edilir. Bu rəvayət (on iki nəfərin Bəni-Haşim tayfasından olması) xüsusilə sonuncu cümlənin Peyğəmbəri-əkrəm (s) tərəfindən yavaş söylənilməsi ilə daha uyğundur. Peyğəmbəri-əkrəmin (s) sonuncu cümləni astadan söyləməsinin səbəbi bir çoxlarının Bəni-Haşimin xilafətə gəlişi ilə razılaşmamaları olmuşdur.

Hədisdə buyurulan on iki nəfəri abbasilərə də tətbiq etmək olmaz, çünki onların da sayı on iki nəfərdən çoxdur. Bundan əlavə, onlar **“Qul la əs’lukum ələyhi əcrən, illəl-məvəddətə fil-qurba”** (Ya Peyğəmbər! (Camaata) de: “Sizdən ən “yaxınlarım”a məhəbbət bəsləməkdən başqa heç bir mükafat istəmirəm!”) ayəsinin və “Kisa” hədisinin ehtiramını saxlamadılar. Buna əsasən, hazırkı hədisi Peyğəmbər (s) Əhli-beytindən ibarət on iki İmamdan başqalarına tətbiq etmək mümkün deyil. Çünki onlar öz zəmanələrinin ən elmli, bilikli, təqvalı və alicənab şəxsləri olmuş, əsil-nəsəbcə hamıdan fərqlənmişlər.” (“Yənabiul-məvəddət”, səh. 446, 77-ci bölümün davamı)

Əvvəlcə əhli-sünnə olub, sonra əhlibeyt ardıcıllığını qəbul edən doktor Məhəmməd Ticani Səmavi bu məzhəbə gəlməsinin səbəbi barədə yazdığı **“Lə əkunə məəs-sadiqin”** (“Düz danışanlarla birgə olam”) adlı kitabında bu məsələ ilə bağlı qısa və eyni zamanda dolğun qeydlərini qələmə alır: “On iki İmam barəsində olan hədisləri İmamiyyə şiələrinin qəbul etdikləri on iki nəfərdən ibarət Əhli-beyt İmamlarından başqasına aid etmək düzgün deyil. Əhli-sünnə alimləri və şəxsiyyətləri bu müəmmanı həll etməlidirlər. Çünki onların səhih kitablarında nəql olunan on iki İmamın kimliyi indiyədək müəmmalı qalmış və ona heç bir cavab tapmamışlar.” ( “Lə əkunə məəs-sadiqin”, səh. 146)

Maraqlıdır ki, bəziləri bu hədisi Əhli-beytdən (ə) başqalarına aid etmək istədikdə, qəribə yollara əl atmışlar; biri Yezid və onun kimilərini guya İslamı qüdrətli və izzətli etdiyinə görə on iki nəfərdən hesab etmiş, digəri on iki nəfər sayı düzəltmək üçün bəzi xəlifələrin adını özbaşınalıqla silmişdir.

Bizim nəzərimizcə, onlar sakit qalıb bu hədis barəsində bir söz deməsəydilər, daha yaxşı olardı. Maraqlıdır ki, həcc səfərlərinin birində Məscidül-Həramda Məkkə alimlərinin birindən bu hədislə əlaqədar belə bir fikir eşitdim: “On iki İmamın dörd nəfəri ilk dörd xəlifədir, səkkiz nəfəri isə gələcəkdə zühur edəcək!”

Halbuki bu hədisi oxuyan hər kəs on iki İmamın varlığının hər bir zamanda, ardıcıl olduğunu başa düşür. “Bu din aradan getməyəcək, həmişə izzətli və yenilməz olacaqdır”, yaxud “Bu din aradan getməyəcək və qiyamət gününə qədər duracaqdır” kimi ifadələr açıq-aşkar göstərir ki, Peyğəmbəri-əkrəmin (s) on iki nəfərdən ibarət xəlifələr silsiləsi dünyanın sonuna qədər davam edəcəkdir.

Bu bəhsimizi də Hafiz Əbu Nəim İsfahaninin “Hilyətül-övliya” adlı kitabında nəql olunan bir hədislə sona yetiririk. İbn Abbas Peyğəmbəri-əkrəmdən (s) belə nəql etmişdir: “Hər kim mənim kimi yaşayıb, mənim kimi ölmək və Rəbbimin saldığı “Ədn” bağında məskunlaşmaq istəyirsə, məndən sonra Əlini, onun vəlisini (dostunu) sevsin və məndən sonra gələn İmamlara tabe olsun. Çünki onlar mənim Əhli-beytimdirlər!” ( “Hilyətül-övliya”, 1-ci cild, səh. 86; “Fəzailul-xəmsə min sihahis-sittə” kitabından nəqlən, 2-ci cild, səh. 34)

BİR İNCƏLİK

Burada mühüm bir məsələyə də qısaca işarə edir, onun geniş izahını gələn bəhslərə saxlayırıq. Əhli sünnə mənbələrində belə nəql olunan rəvayətlərin çoxunda on iki İmamın adı Əhli-beyt məktəbinin qəbul etdiyi kimi göstərilmişdir. Bəzisində isə yalnız onların birincisi (İmam Əli (ə) və axırıncısının (İmam Mehdinin (ə)); “Əvvəluhum Əliyyun və axiruhum Məhdiyy!” “Onların birincisi Əli, sonuncusu isə Mehdidir!”) adları çəkilmiş, bəzilərində də üçüncü İmam həzrət Hüseynin (ə) adına işarə olunmuşdur. O həzrət barəsində Peyğəmbəri-əkrəmdən (s) belə nəql olunmuşdur:

**“Mənim bu övladım (Hüseyn (ə)) İmam, İmam övladı, İmam qardaşı və doqquz İmamın atasıdır!”** (Mərhum Əllamə “Kəşfül-murad” (“Şərhu təcridil-əqaid”) kitabında yazır: “Bu hədis “təvatür” həddində Peyğəmbəri-əkrəmdən (s) nəql olunmuşdur.”

(“Kəşfül-murad”, 1-ci cild, səh. 178-179.))

# İSLAMDA AYPARANIN MƏNASI NƏDİR?



İslamdakı aypara simvolu islamdan neçə min illər böyükdür. Bu simvolun nə vaxt yaranması haqda dəqiq məlumat yoxdur.

Amma mənbələrin əksəriyyətinin verdiyi məlumatlara əsasən, demək olar ki, bu qədim astronomik simvol - bir çox xalqlarda Günəşə, Aya və Səma ilahəsinə inandıqları zaman yaranmışdır. Belə bir məlumatlar da vardır ki, Aypara və ulduz Karfogen ilahəsi Tanit və ya Yunan ilahəsi Diananın simvolu olmuşdur. Bundan başqa, Aypara Vizantiy şəhərinin (indiki İstanbul) simvolu olmuşdur. Digər bir məlumata görə isə, bu simvol ilahə Diananın şərəfinə seçilmişdir. Digər məlumatda isə deyilir ki, eramızdan əvvəl 340-cı ildə Makedoniya çarı II Filippin ordusuna qarşı vizantiylilərin məğrur döyüşünün şərəfinə bu simvol seçilmişdir. Hadisə belə olmuşdur: İman – şəhər Vizantiyanın (Konstantinopolun) mühasirəyə alınması üçün makedoniyalıların hərbi-dəniz donanması olmadığından, onlar liman-şəhərə quru yolla hücum etmək qərarına gəlirlər və gecə şəhərə hücum edəcəklərini planlaşdırırlar. Makedoniya ordusu gecə şəhərə hücum edərkən, aylı gecə olduğundan makedon əsgərləri aydın görünür və bu hücum çox asanlıqla dəf edilir. Makedon əsgərləri geri çəkilməyə məcbur olur. Şəhər əhalisi bunu təntənəli surətdə bayram etməklə yanaşı, Vizantiyanın “himayəçi”si olan ilahə Hekata dualar oxuyur, onun şərəfinə pullar buraxırlar. Bu pulların üstündə Aypara və 6 guşəli ulduz şəkli həkk edilir. Düşməni gecə, ay işığının köməyi nəticəsində dəf etdikləri üçün vizantiyalılar “Ulduzlu Aypara”nı şəhərin simvoluna çevirirlər. Bu simvol Vizantiya şəhəri Konstantinopol olanadək qalır. Yəni 330-cu ilədək, şəhər Roma imperiyasının paytaxtı olanadək... 1453-cü ildə şəhəri Türk-Osmanlıları tutduqdan sonra əvvəl bütpərəstlərin, sonra isə xaçpərəstlərin simvolu olan Aypara, sonda İslam simvoluna çevrilir.

Əfsanələrə görə, 1299-cu ildə Osman Kiçik Asiyada (İndiki Türkiyə ərazisi) balaca bir ərazinin hakimi olur. O, dünyanın bir başından o biri başına qədər hərəkət edən Aypara görür yuxusunda. O, bunu - xoş xəbər, xoşbəxtlik müjdəçi kimi qəbul edir və öz sülaləsinin simvoluna çevirir. Yuxu Osmanı aldatmır. Onun sülaləsi böyük bir ərazini əhatə edən bir imperiyanın xələfləri olurlar və müsəlman aləminin böyük hökmdarlarına çevrilirlər...

Bundan başqa, yuxarıda qeyd olunduğu kimi “Ulduzlu Aypara” ilk öncə Vizantiyanın, sonra Konstantinopolun, türk işğalından sonra isə Türklərin simvoluna çevrilmişdir. Türklər bunu öz qələbələrinin simvolu kimi qəbul etmişdilər. Bundan sonra “Ulduzlu Aypara” müntəzəm olaraq müsəlmanlığın və müsəlman dünyasının simvoluna çevrilir. Hazırda bu simvola İslam ölkələrinin bayraqlarında, pullarında, gerblərində, məscidlərdə, poçt markalarında rast gəlmək mümkündür.

Neçə yüzilliklər Osmanlı imperiyası müsəlman dünyasını idarə etmişdir. Həmin dövrlərdə, hətta indinin özündə belə, “Ay – Ulduz” istər müsəlman, istər qeyri-müsəlmanların təsəvvüründə “müsəlman simvolu” kimi qalmışdır. Amma bu simvolun yaranma tarixi İslamdan çox-çox qədimlərə gedib çıxır.

Bir çox müsəlmanlar “Ay-Ulduz” simvolunun kulonunu boyunlarında gəzdirirlər.

**İmam Baqir (ə): "Dünya həyatının faydalı işlərində tənbəllik edəni düşmən sayıram. Dünya işində süst olan axirət işində daha süst olacaq."**



# İSLAM VƏ İQTİSADİ FƏALİYYƏTLƏR

**Məsumların həyat yoluna nəzər saldıqda görürük ki, iqtisadi fəaliyyətlər, təlaş, zəhmət onların əsas xüsusiyyətlərindən olub. Onlar bu sahədə tutduqları yolla öz ardıcıllarına izzəti-nəfs, yəni başqalarına əl açmayıb zəhmətlə dolanmaq dərsi vermişlər. Həyatverici İslam məktəbi maddi və mənəvi məktəblərə çatmaq üçün insanları faydalı və qurucu təlaşa dəvət edir.**

**Nəcm surəsi, ayə 39: "İnsana ancaq öz zəhməti (səyi, çalışması, əməli) qalar!"**

Məsumların həyatına nəzər saldıqda görürük ki, iqtisadi çalışmalar onların həyat proqramında xüsusi yer alıb. Bəli, onların bu xüsusiyyəti Əhli-Beyt məktəbinin davamçıları üçün əsl izzəti-nəfs dərsidir.

**İşin dəyəri**

İş, təlaş cəmiyyətin həyat rəmzidir. Məsumların həyatında iqtisadi fəaliyyətlər yüksək dəyərləndirilib. İmamlar iqtisadi sahədə təlaş göstərən insanları bu işə həvəsləndiriblər. Peyğəmbər və imamlar öz ehtiyaclarını şəxsən özləri təmin edib, bu ehtiyacların ödənməsi üçün kimdənsə kömək almayıb. Bu xüsusiyyət onların dünyaya baxışı və axirətə bağlılığından danışır. Mənəvi kamillikləri iqtisadiyyat və istehsala zidd saymaq yanlış fikirdir. Bəzən isə bir qrup insan fiziki işləri yoxsul təbəqənin vəzifəsi kimi dəyərləndirir. Ənəs ibn Malik deyir: "Həzrət Peyğəmbər (s) Təbuk döyüşündən qayıdanda onun işçilərindən olan Səd Ənsari istiqbalına çıxdı. Peyğəmbər (s) onunla görüşəndə əllərinin əsl zəhmətkeş əli olduğunu hiss etdi. Peyğəmbər (s) soruşdu ki, nə üçün əllərin bu qədər bərkdir? Səd cavab verdi: "Ya Rəsuləllah, əlimin kələ-kötürlüyünün səbəbi ailəmin ehtiyacını ödəmək üçün bel və iplə iş görməyimdir." Həzrət onun əllərindən öpdü və buyurdu: "Cəhənnəm alovu bu əllərə toxunmaz." (Əsədül-ğabə, İbn Əsir, c. 2, səh. 169)

Həzrət Əlinin (ə) həyatının müxtəlif sahələrinə nəzər saldıqda görürük ki, o öz dövrünün həm ən zahid, həm də ən çalışqan insanı olub. Şəhid Mütəhhəri deyir: "Həzrət Əlinin (ə) şəxsiyyətində bütün təzadlı xüsusiyyətlər birləşib. Gecə xəlvət olanda raz-niyazda heç bir arif ona çata bilməz. Gün doğanda onu tanımaq olmur. Səhabələri ilə oturanda gülərüzlüdür, çöhrəsi daim açıqdır." (İslamda təlim-tərbiyə, Şəhid Mütəhhəri, səh. 410)

İmam Musa ibn Cəfər (ə) ticarətlə məşğul olan ardıcılına buyurur: "Erkən sübh izzət və başıucalıq ardınca tələs." (Musnədul-imam Kazim, Əzizullah Ətarudi, c. 2, səh. 359) Həzrət (ə) izzət və başıucalıq deyəndə halal zəhmət və ticarəti nəzərdə tutur. İnsanın izzəti onun əllərinin zəhmətindən asılıdır. Bu səbəbdən məsumlar öz ictimai-siyasi fəaliyyətlərinə baxmayaraq daim çalışmış, öz ehtiyaclarını özləri təmin etmişlər. Onlar öz işçiləri, xidmətçiləri ilə çiyin-çiyinə tər tökmüşlər.

**Mömin tənbəl olmur!**

İşsizlik təkcə fərd və cəmiyyətə zərbə vurmur. Onun ən böyük zərbəsi insanın ruhunadır. Zəhmətdən uzaq insan öz insani şəxsiyyətindən tənəzzül edir, əsl səadətdən məhrum olur. İslama görə peşəsi olan, ailəsinin ehtiyacını əlinin zəhməti ilə qazanan insanın məqamı çox yüksəkdir. (Vəsailuş-şiə, Şeyx Hürr Amili, c. 12, səh. 13) Üzrü olmayan halda öz ehtiyaclarını başqalarının üzərinə qoyan insan rəvayətlərdə məlun adlandırılır. Allahın Rəsulu (s) tənbəl insanları məzəmmət edərək buyurur: "Öz dolanışıq yükünü başqasının boynuna qoyan şəxs məlundur, məlun! Elə bir kəs ki, ailəsinin ehtiyacını ödəmədiyindən onları alçalmış vəziyyətə gətirib." (Tuhəful-uqul, səh. 37)

İmam Məhəmməd Baqir (ə) tənbəlliyə məzəmmətlə buyurur: "Süstlük və pərişanlıqdan çəkin, bu iki xasiyyət bütün pisliklərin açarıdır. Tənbəl adam öz haqqını əldə edə bilməz, ruh düşkünlüyü ilə çalışmaq mümkünsüzdür." (Tuhəful-uqul, səh. 295)

İmam Baqir (ə) başqa bir məqamda belə buyurur: "Dünya həyatının faydalı işlərində tənbəllik edəni düşmən sayıram. Dünya işində süst olan axirət işində daha süst olacaq." (Əl-Hukmuz-zahirə, c. 2, səh. 469)

**İstehsalda təlaş**

Məsumların iqtisadi fəaliyyətlərini diqqətlə nəzərdən keçirdikdə aydın olur ki, onlar sadəcə ehtiyacları ödəməklə məşğul olmayıb. Eyni zamanda fərdlərin yatmış istedadlarını işə salmaq üçün istehsala maraq yaradıblar. Məsumların nəzərincə istehsal üzərində qurulmuş iqtisdiyyat, xüsusi ilə əkinçilik digər sahələrdən üstündür. Həzrət Əli (ə) hökumət işlərindən kənarda qaldığı 25 ildə vaxtının çoxunu əkinçiliyə, quyu qazmağa, arx çəkməyə sərf edib. Rəvayətlərə əsasən, imam Musa Kazimin (ə) əsas gəlir mənbəyi əkinçilik olub. Əli ibn Əbu Həmzə deyir: İmam Kazimin (ə) əkin sahəsində tər içində işlədiyini gördüm. Ərz etdim ki, bəs işçilərin haradadır? Buyurdu: "Ey Əli, bel ilə məndən və atamdan da yaxşı işləyənlər olub." Soruşdum ki, onlar kimdir? Həzrət buyurdu: "Allahın Rəsulu, Əmirəlmöminin (ə), ata-babalarım hamısı əlinin zəhməti ilə dolanıb. Əkinçilik peyğəmbərlərin, onların canişinlərinin, layiqli insanların peşəsidir." (Biharul-ənvar, c. 48, səh. 115)

**İstehsalın himayəsi**

Məsum imamlar iqtisadi fəaliyyətlər və istehsalda öncül olmaqla yanaşı istehsalçını və əkinçini himayə ediblər. İşdə zərər çəkənlərə, müflis olanlara borc verməklə onları ayağa qaldırıblar. Həzrət Əlinin (ə) istehsalçı və əkinçiyə xüsusi diqqəti olub. İmam Sadiq (ə) buyurur: "Əmirəlmöminin (ə) həmişə öz işçilərinə əkinçiləri tapşırardı." (Vəsailuş-şiə, c. 13, səh. 216)

İmam Musa Kazim (ə) Mədinədə əkinçi və istehsalçılara xüsusi diqqət göstərər, onları himayə edərdi. Mədinə əhlindən olan bir əkinçi nəql edir ki, məhsul yığımı zamanı çəyirtkələr sahəyə hücum çəkib, məhsulu məhv etdi. Beləcə zərərə düşdüm. Pərişan halda oturduğum zaman uzaqdan imam Musa ibn Cəfərin (ə) yaxınlaşdığını gördüm. Narahatçılığımın səbəbini soruşdu. Ərz etdim ki, çəyirtkələr əkinimi məhv edib. Həzrət (ə) nə qədər zərərə düşdüyümü soruşdu. Mən dəyən zərəri ona dedim. Həzrət xidmətçisinə tapşırıq verdi ki, mənə dəyən zərəri ödəsin. Mən imamın yardımını alandan sonra ondan istədim ki, əkin sahəmə qədəm qoyub mənə dua etsin. O mənim istəyimi yerinə yetirdi. Sonra Peyğəmbərin (s) buyuruğunu yada saldı: "Çətinliklə üzləşənlərə möhkəm dayaq olun." (Tarixe-Bağdad, c. 15, səh. 16)

İmam bu sözlərlə ətrafındakılara öyrədir ki, zərər çəkənlərlə necə rəftar edilməlidir. İmam Musa ibn Cəfər (ə) zərər çəkmiş əkinçiyə təkcə sərmayəsini yox, həm də gözlədiyi qazancı verir. Bu həm də mənəvi dəstəkdir. İmam ona dua edir, Peyğəmbərdən (s) rəvayət nəql etməklə əkinçinin qəlbinə möhkəmlik verir.

**Yoxsul təbəqəyə kömək**

Çətinlik və ehtiyac hər insanın qapısını döyə bilər. Problemlə rastlaşan fərd başqalarının yardımına möhtacdır. O gözləyir ki, imkanlı insanlar ona yardım əli uzatsın. İslam təlimlərinə görə cəmiyyətdə yoxsulluğun qarşısını almaq üçün addım atmaq yüksək dəyərləndirilir. Amma əksər cəmiyyətlərdə işçi qüvvəsi olmayan şəxslər, yetim uşaqlar, xəstələr var. Bu insanların ehtiyacları hörmət və ehtiramla ödənməli, şəxsiyyətləri alçaldılmamalıdır. Məsumların həyatında yoxsullara diqqət xüsusi yer alır. Həzrət Əli (ə) yoxsulların himayəsinə öz islahat proqramlarında öndə yer verir. Həzrət (ə) Malik Əştəri hakim təyin edəndə ona tapşırır ki, məhrum təbəqəni yaddan çıxarmasın, onların ehtiyaclarını təmin etsin. (Nəhcül-bəlağə, məktub 53) Əmirəlmöminin (ə) yoxsul təbəqəyə diqqəti ciddi tapşırmaqla yanaşı özü bu sahədə əməli addımlar atır. O, yetimlərlə ata kimi rəftar edir və yetimlərin atası kimi tanınır. (Üsuli-kafi, c. 1, səh. 406) Hədisdə nəql olunur ki, imam Səccad (ə) gecənin qaranlığında qapı-qapı gəzib yoxsullara pul paylayır. Həzrət (ə) şəhadətə çatanda yardım gəlmədiyini görən insanlar başa düşür ki, bu şəxs imam Səccad imiş. (Üsuli-kafi, c. 1, səh. 389)

Əbu Haşim Cəfəri imam Həsən Əskərinin (ə) yaxın səhabəsi olub. Nəql edir ki, yoxsulluqdan imama (ə) şikayətləndim. Həzrət əlindəki qamçı ilə torpağın üzərində xətt çəkdi və oradan 500 əşrəfi dəyərində qızıl çıxarıb mənə verdi. Buyurdu: "Əbu Haşim, bunu götür və bizi üzürlü say." (Mənaqib, İbn Şəhr Aşub, c. 4, səh. 328)

Həsən ibn Kəsir deyir: İmam Baqirə (ə) yoxsulluqdan şikayətləndim. İmamın göstərişi ilə mənə 700 dirhəm verdilər. İmam buyurdu ki, bunu xərclə, qurtaranda mənə xəbər et. (İrşad, Şeyx Müfid, c. 2, səh. 166) Səfvan ibn Sarban deyir: İmam Sadiqin (ə) hüzurunda idim. Məkkədən olan Meymun adlı kişi imama (ə) ərz etdi: "Yol pulum qurtarıb, yol puluna ehtiyacım var." İmam (ə) mənə göstəriş verdi ki, tez onun ehtiyacını ödəyim. Allahın yardımı ilə həmin şəxsin ehtiyacı aradan qalxdı. İmamın görüşünə gedəndə həmin şəxs barədə soruşdu. Ərz etdim ki, Allahın yardımı ilə məsələ həllini tapdı. İmam buyurdu: "Agah ol, din qardaşının ehtiyacını hökmən ödə. Bu iş mənim üçün bir həftə Kəbənin təvafından üstündür." (Üsuli-kafi, c. 2, səh. 198)

**Mötədillik və qənaət**

İlahi nemətlərdən istifadədə hədd gözləmək budur ki, mötədil olasan, ehtiyac həddində xərcləyəsən. Mötədillik və qənaət nemətin ömrünü uzadır, mənəvi kamilliklərə səbəb olur. Məsumlar tapşırır ki, istehsal və infaq çox olsun, amma xərclərdə qənaət gözlənilsin. İmamlar istehsalda artımı fərdin özü yox, cəmiyyət üçün nəzərdə tutur. İbn Abbas deyir: Cəməl savaşında Ziqar məntəqəsində düşərgə salınmışdı. Həzrət Əlinin (ə) xeyməsinə getdim. Gördüm ayaqqabısını tikir. Salam verdim. İmam salamımı alıb soruşdu ki, İbn Abbas, bu yamaqlı ayaqqabının dəyəri nədir? Ərz etdim ki, heç nə. İmam buyurdu: "Sizin üzərinizdə hakimiyyət mənim üçün bu ayaqqabıdan da dəyərsizdir. O vaxt dəyəri olur ki, ədaləti bərpa edim, zülmü aradan qaldırım." (Biharul-ənvar, c. 40, səh. 328)

İmam Baqir (ə) buyurur: "Hər kəs Allahın ona verdiyi ruziyə razı olsa xalqın ən ehtiyacsızıdır." (Əl-Əhkamuz-zahirə, c. 1, səh. 650)

İmam Kazim (ə) xərclərdə orta həddin gözlənilməsi barədə buyurur: “Orta həddi gözləyən şəxs üçün həmişə nemət var. İsraf edənin isə nemət əlindən çıxacaq.” (Biharul-ənvar. c. 87, səh. 327) İmamın geyimi, miniyi, mənzili, süfrəsi hamı üçün bir nümunə idi. İmam bəzən belə buyururdu ki, onun seçilməsi səbəbi orta həddi gözləməsi olub.

**İqtisadiyyatda ədalət**

Məsumlar cəmiyyətdəki ədalətsizliklərə qarşı çıxmış və iqtisadiyyatda ədalətin gözlənilməsinə xüsusi diqqət ayırmışlar. Onlar bu məqsədlə müəyyən siyasətlər həyata keçirmişlər. Həzrət Əlinin (ə) dövründə dövlətin əsas qazancı dini vergilərdən (xüms) yığılan beytül-mal idi. İmam beytül-mala xüsusi diqqətlə yanaşar, ona xalqın rifah vasitəsi kimi baxardı. Təlhə və Zübeyr imamın görüşünə gələndə imam bir lampanı söndürüb, başqa birini yandırır. Təlhə və Zübeyr səbəbini soruşanda imam buyurur ki, yağı beytül-maldan olan çırağın işığında sizinlə əyləşməyim düzgün deyil.” (Siyasətnameye-imam Əli, Reyşəhri, Mehdi Mehrinin tərcüməsi, s. 444) Həzrət Əli (ə) hökumət məsullarına qarşı bu sahədə olduqca tələbkar idi. O, Ziyad ibn Übəyyəyə məktubunda yazır: “And olsun Allaha, müsəlmanların malına az ya çox xəyanət etsən, səninlə rəftarım sərt olacaq.” (Nəhcül-bəlağə, məktub 20) İmam bir tərəfdən istehsalçı və əkinçilərə kömək göstərilməsini tapşırır, digər tərəfdən iqtisadiyyatda ədalətin qorunması üçün bazara nəzarəti tələb edir. (Nəhcül-bəlağə, məktub 53) İmam işçilərinə tapşırır ki, qiymətlər xalqın imkanına uyğun tənzimlənsin, eləcə də tacirlərə zərər dəyməsin. (Nəhcül-bəlağə, məktub 53) Əmirəlmömininin (ə) nəzərincə İslam hökumətinin gəlirləri Allahın mülküdür və İslam hakimi həmin mülkü hesab-kitabsız xərcləyə bilməz. Büdcə müsəlmanlar arasında ədalətə riayət etməklə bölünməlidir. Həzrət Əlinin (ə) hakimiyyətinin son illərində bir çox yaxınları onun ədalətinə dözə bilmirdi. Beytül-malın bərabər bölünməsi, israfa yol verilməməsi kimlərisə razı salmırdı. Buna görə də narazılar həzrət Əlidən (ə) ayrılıb ya Müaviyəyə üz tutur, ya da şəxsi həyatlarının ardınca gedirdilər. Bəziləri imama (ə) tövsiyə verirdi ki, hakimiyyətdə sabitlik yaratmaq üçün Qüreyş və ərəb başçılarının payını artırsın. İmam onların cavabında buyurdu: “Deyirsiniz ki, himayəmdə olan insanlara zülm etməklə qələbə qazanım?! And olsun Allaha, nə qədər ömrüm var, nə qədər gecə və gündüz yerindədir, ulduzlar səmada yanıb-sönür dediyiniz olmayacaq. Əgər bu mal şəxsən özümün olsaydı belə onu bərabər bölərdim. Amma bu mal Allahındır!” (Nəhcus-səadə fi mustədrəki nəhcül-bəlağə, Məhəmməd Baqir Məhmudi, c. 2, səh. 450-452)

İmamın buyuruqlarından aydın olur ki, o heç vaxt bir qrupun mənafelərinə xatir və ya öz mövqeyini möhkəmləndirmək üçün müsəlmanlara zülmə yol verməyib. İslam quruluşunda məsul şəxs şəxsi malından infaq edəndə də ədalətə riayət edir, ayrıseçkiliyə yol vermir.

HaqqYolu/ hawzah

# EY ALLAH BƏNDƏLƏRİ, BU DÜNYADAN NƏ UMURSUNUZ?

***Bir müddət bu dünya evində qonaqsınız və bir can borclusunuz, o borc da sizdən alınacaq***

*Ömürləriniz sona yetəcək, əməlləriniz yazılıb göstəriləcək. Neçə adam var ki, bütün işlərini sahmana salmağa çalışır, bu mümkün deyil. Çəkdiyi zəhmət hədərdir, elə bir zamanda yaşayırsınız ki, şər xeyri üstələmişdir. Şeytan insanları həlak etmək ümidindədir.*

*İstədiyin tərəfə nəzər sal: yoxsulluğa düşmüş fəqirdən, Allahın nemətlərini küfrə dəyişmiş dövlətlidən, Allaha aid haqları malını çoxaltmağa sərf edən xəsisdən, qulağı nəsihət eşitməyən müddəidən başqa heç kimi görməyəcəksən. Bəs haradadır mərdləriniz, təmiz adamlarınız, səxavət sahibləriniz, hər şeydə paklığı gözləyənləriniz?*

*Hamısı bu alçaq dünyadan köçüb getdimi? Bu tez ötüb keçən dərdli, ələmli aləmi tərk etdilərmi? Onları düşünərkən heç kimsə dodağını belə qaçıra bilməz, onları yada salarkən başsağlığı belə diləyə bilməz.*

*Dünya bərbad olub. Pislikləri dəyişdirən yoxdur. Belə bir vəziyyətdə ikən yenə də Allahın tərtəmiz məqamına qovuşmaq arzu edirsiniz? Qətiyyən mümkün deyil! Allahın cənnətinə daxil olmağı arzulayan Ona itaət etməlidir. Allahın lənəti olsun Onu unudanlara... Özü bəd əməldə ikən pisliklərdən çəkindirənlərə...*

*Həzrəti Əli (ə)*
*Nəhcül-bəlağə, 129-cu xütbə*

# HARLEMDƏN KƏBƏYƏDƏK

> **«Gələcək, ona bu günündən hazırlaşanlara məxsusdur».**
> *Malkolm İks*



Malkolm İks (əslən Malkolm Littl) afroamerikan islami düşüncəsinin ən xarizmatik liderlərindən olub.

Şəhid Malkolm X - çətin həyat yaşamış olduqca maraqlı bir şəxsiyyətdir.

**UŞAQLIQ ÇAĞLARI**

deyerler.org: Malkolm Littl 1925-ci il mayın 19-da Amerikanın Nebraska ştatının Omaha şəhərində dünyaya gəlib. Ailədə 8 uşaq olublar. Onun atası Erl Littl xristian ruhanisi və «Geriyə - Afrikaya» hərəkatının rəhbəri olan Markus Harvinin yaxın tərəfdaşlarından biri idi.

Malkolmun atasının qaradərililərin mülkü haqları uğrunda mübarizəsi ağ irqçi təşkilatın amansız təhdidlərinə səbəb olur və nəhayətdə, ailə iki dəfə köç etməyə məcbur olur. Bu zaman Malkolm cəmisi 4 yaşın içində idi.

1929-cu ildə onların Miçiqandakı evi yerli-dibli yandırılır. 1931-ci ildə isə ailə başsız qalır - Malkolmun atası Ku-kluks-klan tərəfindən qətlə yetirilir. Malkolmun anası bu hadisə nəticəsində dəhşətli sarsıntı keçirir və bu, onun səhhətinə sağalmaz zərbə endirir. Nəticədə, atasını və faktiki olaraq, anasını da itirmiş övladlar müxtəlif ailələr arasında paylaşdırılırlar.

**TƏHSİL VƏ GƏNCLİK İLLƏRİ**

Məktəbdə Malkolm çalışqan və müvəffəq şagird hesab olunur. Malkolm vəkil olmaq arzusunu, ilk dəfə olaraq, müəllliminə izhar edir. Cavabında müəllim bildirir ki, ABŞ-da qaradərili insan üçün heç bir perspektivli gələcək yoxdur, ələlxüsus da vəkillik karyerası tamamən mümkünsüz bir xülyadır.

Bu etiraf Malkolmu dəhşətli səviyyədə sarsıdır: Bundan sonra onun təhsilə marağı soyuyur və o işləməyə başlayır.

Tale Malkolmu Amerikanın müxtəlif bölgələrinə atır: Massaçusets, Boston və digər. O, çalışqan və təşəbbüskar işçi idi, lakin dərisinin rəngi aqibətini hər yerdə uğursuz edirdi. O, bir işdə oturuşa bilmir - bu dövrdə çoxlu iş yeri dəyişəsi olur.

Nyu-Yorka gəldiyi zaman Malkolm artıq çarəsizliyin son həddində olur və ümidsizlik məqamında bir neçə xırda cinayət törədir. Bununla, Malkolm yüz minlərlə afroamerikalının keçdiyi yola qədəm qoyur - 1946-cı ildə o, həbsxanaya düşür.

7 illik məhbus həyatı ərzində Malkolm səylə oxuyub, savad alır. Tezliklə ona qardaşı Recinald baş çəkir. O, Malkolma İslamı qəbul etdiyini və «İslam milləti» təşkilatına qoşulduğunu bəyan edir. Malkolm İslamı təhqiq etməyə başlayır və bu dinin ilahi mahiyyətinin misilsiz dühası onu heyrətə gətirir.

Malkolm tərcümeyi-halını belə təsvir edirdi: «Mən orta məktəbi Miçiqanda oxudum. İkinci məktəbim Bostondakı getto idi, kollecim Harlem oldu, alimlik dərəcəsini isə məbhəsdə aldım».

**MALKOLM İKS**

1952-ci ildə azadlığa buraxılan Malkolm «Nation of İslam» təşkilatının fəallarından birinə çevrilir və adını Malkolm Littldən dəyişdirib, Malkolm İks qoyur - o, bu təxəllüsü irqi ayrı-seçkiliyə etiraz əlaməti kimi götürür. «Əgər qaraların heç bir haqqı yoxdur-

sa, ağdərilərin sırıdığı adlar da bizə gərək deyildir. İks - afroamerikalı üçün ən münasib bir isimdir» - Malkolmun məntiqi bu idi.

O, tez bir zamanda təşkilatın spikerinə çevrilir. Bununla bərabər, o, Boston, Harlem, Nyu-York kimi şəhərlərdə «İslam milləti» tərəfindən yeni məscidlərin inşasını əlaqələndirir. Malkolmun maarifçilik və təbliğatçı fəaliyyəti nəticəsində təşkilat üzvlərinin sayı 1952-ci ildə mövcud olan 500 nəfərdən 1963-cü il üçün 40 000 nəfərə çatır. Gənc boksçu Kassius Kleyi İslami hərəkata məhz Malkolm cəlb edir.

Dünya çempionu Toni Liston ilə döyüşdən öncə Kley və Malkolm Allahdan qələbə diləyərək, ikilikdə dua edirlər və Kley qeyri-mümkün bir iş görür - altıncı raundda Listona qalib gəlir. Mətbuat konfransında Kley müsəlman olduğunu bəyan edir, bildirir ki, indi onun adı Mühəmməd Əlidir.

Məhz Malkolm bir çox qaradərili amerikalının qəlbində İslama güclü bir maraq şölələndirir. Malkolmun çıxışları və publisistik yazıları geniş dinləyici auditoriyasını cəlb edir. Nailiyyətlərində ləngiməyərək, tezliklə, o, «Mühəmməd (s) söyləyir» qəzetinin nəşrinə başlayır. Qəzet Malkolmun yaşadığı evin zirzəmisində dərc olunur.

Artıq 1961-ci ilə Malkolm İks «Nation of İslam» təşkilatında ikinci şəxs olmağa gerçək namizəd olur.

Hər tərəfdə şəxsiyyətinə göstərilən hörmət və sayğı təşkilat rəhbərliyinin təlaş və narahatlığına səbəb olur. Digər tərəfdən, hakimiyyət də Malkolmun artan nüfuz və şöhrətindən narahat olmağa başlayır. Sözü ilə işi bir olan gənc və xarizmatik lider hökumətin «Nation of İslam» üçün müəyyən etdiyi oyun qaydalarına uyğun gəlmir. Bütün bunlar Malkolmla «İslam milləti» arasında əlaqələrin qırılmasına gətirib çıxarır.

**MƏKKƏ ZİYARƏTİ**

12 mart 1964-cü ildə Malkolm «İslam milləti» təşkilatından ayrıldığını və «Müsəlman məscidi» təşkilatını təsis etdiyini bəyan edir. Bundan bir qədər sonra o, Məkkə ziyarətinə yollanır. Həcc ziyarəti onun həyatında həlledici rol oynayır - Malkolmun dünyagörüşü, əqidəsi, həyat prioritetləri təməlindən dəyişir. Faktiki olaraq, həcc ziyarətindən sonra Malkolmun həyatında dönüş baş verir. O artıq ağ və qaradərililər arasında fərq qoymur, hər iki tərəfə bir qardaş kimi yanaşmağa başlayır.

Məkkədə o, müxtəlif ölkələrdən gələn müsəlmanlarla tanış olur və özü üçün gözlənilməz bir kəşf edir: Malkolm başa düşür ki, «Nation of İslam»nin təşkilatçısı Elayci Mühəmmədin yaydığı sərsəm ədavətçilik ideologiyasının İslam dini ilə əslində heç bir əlaqəsi yoxdur. O, adını əl-Həcc Malik əl-Şabazz isminə dəyişərək, Birləşmiş Ştatlara qayıdır.

ABŞ-a ruhən yenilənmiş halda qayıtdıqdan sonra Malkolm vəhdət və birlik idealları ilə yaşamağa başlayır. İnsanların bəyaz- və qaradərililərə ayrılmasının əleyhinə çıxış edərək, hamıya bərabər münasibət bəsləyir.

Bu andan etibarən Malkolm X-in və onunla bərabər, ümumilikdə, Amerikadakı İslamın həyatında mühüm dəyişikliklərə təkan verilir. Belə ki, Həcc ziyarəti və bundan sonrakı Afrika səfəri Malkolmun dünyagörüşündə köklü dönüş yaradır: o, qara irqçilik və ümumiyyətlə, İslam təliminə uyğun gəlməyən bütün digər görüşlərdən imtina edir.

**KƏBƏ YOLÇUSUNUN XATİRƏLƏRİ**

Sonralar Malkolm X xatırlayır: «Məkkə yaxınlığında Mina vadisində ikən dünyanın ayrı-ayrı yerlərindən gəlmiş çoxdilli insan toplusunun bir olan Allaha doğru yönəldiyinə baxırdım. Daxilimdə fövqəladə məftunluq duyurdum. Anlamışdım ki, dərisinin rəngindən və sosial mövqeyindən asılı olmayaraq, Allah üçün hamı birdir».

İrqi, milliyyəti, dərisinin rəngi ilə fərqlənən yüz minlərlə müsəlmanın - bacı və qardaşların birgə ruhi axını Malkolmu təməldən dəyişdirir. Bu artıq yeni bir Malkolm X idi - Həcc ziyarəti ilə ruhlandırılmış, vücudən yeniləşmiş bir insan. O, yeni bir yola qədəm basmışdı, burada «nəcib qaralar» və «şeytan törəmələri olan ağdərililər» arasında ayrı-seçkilik mövcud deyildi.

Müsahibələrindən birində Malkolm bildirirdi: «Xristianlıq ilə İslamı müqayisə etdiyimdə, təbii ki, sonuncunu seçdim. Xristianlıq öz-özünü məhv etməkdədir. Bu gün mən İslamın özüm üçün və ümumilikdə bəşəriyyət üçün etdiklərinin dəyərini dərk etmək iqtidarındayam».

Qahirədən Ciddəyə uçuşun təsvir edərək, Malkolm xatırlayır: «Təyyarədə müxtəlif sərnişinlər var idi: ağ-, qara-, qırmızı-, sarıdərili. Amma dərimizin rənginin fərqinə baxmayaraq, hamımız qardaş kimi idik! Hamımız eyni Allaha inanır və bir-birimizə eyni dərəcədə sayğı ilə yanaşırdıq».

Malkolm bütün insani irqlərin birliyi, gerçək doğmalıq hissini yaşayırdı. Onun fikrincə, bu birlik vahid dəyərlər sisteminin qəbul edilməsi sayəsində mümkün ola bilər. Yaxın dostlarına məktublarında yazırdı: «Amerika İslamı mütləq tanımalıdır, çünki o, cəmiyyətdən irqçilik problemini silən yeganə təlimdir. Müsəlman dünyasına səyahətlərim zamanı Amerikada «bəyaz» adlanacaq bir çox insanlarla görüşür, danışır, hətta süfrə yoldaşı olurdum, lakin onların bu «bəyazlığı» İslam dini sayəsində tamamilə silinmişdi. Əvvəl heç bir vaxt fərqli rənglərdə olan insanların bu qədər səmimi davranmasının, əsl qardaşlıq münasibətlərində bulunmasının şahidi olmamışdım».

Malkolm X İslamın təməlində duran məhəbbət və dözümlük ideallarının yayılmasında tələbələrin mühüm rol oynadığını vurğulayırdı: «İnanıram ki, kollec və univerisitetlərin ağdərili gəncliyi haqqa tərəf - irqçiliyin mütləq nəticəsi olan fəlakətləri dəf edə biləcək yeganə yola doğru yönələcəkdir».

**ŞƏHADƏT YOLÇULUĞUNDA**

Malkolmun çıxışları yüzlərlə, minlərlə adamı bir araya gətirirdi. Onun auditoriyası - dərilərinin rəngi fərqli olan

intellektual insanlardır. O, bir çoxlarını narahat etməyə başlayır, öncə ağ- və qaradərili irqçiləri, daha sonra isə artıq hakim dairələri də.

Malkolm sanki sivri qılınc üstündə yeriyirdi. Ona hədə-qorxu gəlirlər, evini odlayır və partladırdıar, lakin o, sarsılmır, əqidəsindən dönmür: «ağ və qara» yoxdur, yalnız «yaxşı və pis» var.

Və insanlar inanırdılar… Onlar Malkolmu dinləyir, onun qəlbindən çıxan eşqlə şölələnirdilər. Malkolmun nitqindən yayılan Həqiqət nuru minlərlə, onminlərlə insanın qəlbini şəfəqləndirirdi.

1965-ci ilin fevralı… Bu müdhiş gündə həqiqət carçısı olan Malkolm İks Harlem mədəniyyət mərkəzinin binasında mühazirə oxuduğu zaman muzdlu qatillər tərəfindən qətlə yetirilir. Çoxsaylı dinləyicilərinə söylədiyi son kəlmələr məhz İlahi Həqiqət, Ədalət və Bərabərlik haqqında idi…

Qatillər Malkolmu 16 güllə atmaqla qətlə yetirmişdilər. Əcəba, nifrətin gücü nə qədər olmalıdır ki, sadəcə əqidəsini təbliğ edən bir insanı belə qəddarlıqla öldürələr?..

Əlamətdar məqamlardan biri odur ki, xütbəyə çıxmazdan əvvəl Malkolm ailəsi ilə vidalaşır. Sanki şəhadətin yaxınlığını duyur. Axı bundan bir qədər öncə zalımlar onun evini partlatmışdı və ünvanına yönəlmiş təhdidlər artıq tamamilə aşkar şəkil almağa başlamışdı. Amma Malkolmu fiziki məhvlə hədələdikdə, o gülümsəyərək belə cavab verirdi: «İslama gəldiyim andan etibarən özümü ölümə hazırlamışam. Məni hədələrlə qorxudub, özünüzü yormayın!»

Malkolm ən ali ideallar uğrunda şəhadəti qəbul edir. O, insanların bir-birinə məhəbbət bəsləməsi, dərisinin rənginə görə nifrətə son qoyulması naminə həyatını qurban verir …

Amma canilər əsla hədəfinə yetişə bilmirlər. Malkolmun irsi ölmür. Əksinə, nəsildən nəslə ötürülərək, alim, filosof, tarixçi, kinematoqrafçıların tədqiqat obyektinə çevrilir. Bu sırada Spayk Linin Malkolmun həyatına həsr etdiyi və 1992-ci ildə Oskar mükafatına layiq görülmüş (Denzel Vaşinqton, ən yaxşı kişi rolunun ifasına görə) kinofilmi xüsusi yer tutur.

Malkolm Nyu-Yorkda Hard Seynt Deyli rayonunda yerləşən Fern Kliff qəbristanlığında dəfn edilib. O, Əl-Həcc Malik Əl-Şabazz adı altında dəfn olunub.

Şəhid edilməsindən bəri illər keçməsinə baxmayaraq, bu günədək qətlinin üstü açılmamışdır. Ancaq bir şey şübhəsizdir ki, Malkolm X, yaxud özünü adlandırmağı sevdiyi kimi - Əl-Həcc Malik Əl-Şabazz məhz nadanlıq və irticanın qurbanı olmuşdur. Və bu yöndə nə gülləni tuşlayan qatillərin, nə Malkolm ixlası, dürüstlüyü və sevgisi qarşısında vəhşi xof keçirən sifarişçilərin dərilərinin nə rəngdə olması qətiyyən önəmli deyildir…

Hacı İlqar İbrahimoğlu,
ilahiyyatçı filosof

# PEYĞƏMBƏRLƏRİN PEŞƏSİ NƏ OLUB?

Qurani-Kərimdə adları qeyd edilən peyğəmbərlərimizin hər biri bir və ya bir neçə dünya işi ilə məşğul olmuş, dünya güzanclarını bu yolla tədarük etmişlər. Beləcə bu yolla insanlara gözəl və faydalı peşələri öyrətmiş, həm də onları boyun bükməkdən qurtarmışlar. Bundan əlavə də tövhid əqidəsini çəkinmədən müdafiə etmişlər. Belə isə, Quranda adı çəkilən bəzi peyğəmbərlərin hansı peşəyə sahib olduqlarını bilirsinizmi?

**Hz. Adəm (ə) ilk əkinçilik mühəndisi və cütçü olub.**

**Hz. Şis (ə) həllac (yunçu), ipəkçi, nəssac-** toxucu, hörücü və parça sənayesinin ilk qurucusu olub.

**Hz. İdris (ə) iynəni ilk icad edən,** ona dəlik açan, iplik keçirtdiyi üçün dərzilərin banisi hesab edilir. O həm də yazıçı idi.

**Hz. Nuh (ə) dülgərlərin** – gəmiçilərin – dənizçilərin təsisçisi idi.

**Hz. Hud (ə) tacir idi, tacirlərin seyyidi hesab edilir.**

**Hz. Saleh (ə) sürü ilə dəvə saxlayırdı,** südündən içər, həm də satıb dünyasını təmin edərdi. Salehin (ə) dəvəsi məşhurdur.

**Hz. İbrahim (ə) Kəbə evini inşa etməklə** Hz. Süleyman (ə) və Memar Sənana öndərlik etmişdir. O Hələbdə südçü də olub.

**Hz. Lut (ə) tarixçi, səyyah idi.** O həm də heyvan saxlayırdı.

**Hz. İsmayıl (ə) quru və dəniz ovçuluğu** ilə güzəranını keçirirdi. 70 dil bilir, ovçu və tərcüməçilərin piri sayılır.

**Hz. İshaq (ə), Hz. Yəqub çoban idilər.**

**Hz. Yusif (ə) saatı ilk icad edən,** torpaq məhsulları ofisini təsis edən, bolluq zamanında anbarlaşdırıb, qıtlıq zamanı xalqa paylamağı düşünən peyğəmbər idi.

**Hz. Əyyub (ə) əkinçi idi.**

**Hz. Şüəyb (ə) əkinçi idi. O həm də ferma sahibi idi.**

**Hz. Musa (ə) çobanlıq etmiş** və Hz. Şüəybə (ə) xidmət göstərmişdir.

**Hz. Harun (ə) vəzir idi.**

**Hz. Davud (ə) dəmirlə işləyən, zireh düzəldən** və davamlı ordu qurucusu olub, Calutun ordusunu məğlub edən komandan olub. Həm də hökmdar olub.

**Hz. Süleyman (ə) əmir, hökmdar idi.** İncə qamışlardan zənbil toxuyardı.

**Hz. Zülkifl (ə) çörəkçi idi.**

**Hz. İlyas (ə) toxucu və sapçıların piri idi.**

**Hz. Yunus (ə) balıq tutmaqla dolanırdı.**

**Hz. Üzeyir (ə) bağban idi.** Meyvə ağaclarını ilk dəfə aşılayan , fidan yetişdirən (calaq edən), budama işlərini insanlara öyrətmişdir.

**Hz. Yeremiya (ə) cərrah idi.**

**Hz. Danyal (ə) nücum, yuxuyozma elminə malik idi.**

**Hz. Loğman (ə) həkimlik və əczaçılıq sənətinin piridir.**

**Hz. Zəkəriyyə dülgər idi. O, həm də məbəd qulluqçusu idi.**

**Hz. İsa (ə) dülgər, həm də dünyanı tərk etmiş bir səyyah idi.**

**Hz. Məhəmməd (s) kiçik yaşlarından çobanlıq etmiş daha sonra ticarətlə və cihadla məşğul olmuşdur. Cihad illərindən vəfatına qədər dövlət başçısı olmuşdur.**

# ŞƏHİD QANI YERDƏ QALMAZ

## *(İki hissədən ibarət mənzum dram)*

**Əziz DƏLİVƏLLİ**

**İştirak edirlər:**
Ana.
Çavuş (Əli).
Dindar.
Zabit.
David.
Cərrah.
Şəfqət bacısı.
Gənc.
Yaralı əskərlər və b..

**Birinci hissə**

**Salonda işıqlar azalır. Uzaqdan azan səsi eşidilir. Pərdə yavaş-yavaş açılır. Səhnə boyu çadırdan düzəldilmiş səhra qospitalı. Sağ tərəfdə cərrahiyyə əməliyyatı üçün ağ mələfə ilə yaralı əskərlərin yatdığı yerdən əlüstü ayrılmış bir guşə. Burada 45-50 yaşlarında cərrah, şəfqət bacısı əməliyyat aparırlar. Digər tərəfdə taxta ilə tez-tələsik düzəldilmiş iki qatlı çarpayı və xüsusi hərbi çarpayılarda uzanmış yaralı əskərlər. Səhnənin ortası ilə o yan-bu yana tələsən, yan qapıdan tez-tez girib-çıxan (bəzən qaça-qaça) şəfqət bacıları, tibb işçiləri, əskərlər. Arxa planda uzaqdan atəş səsləri, partlayışlar eşidilir. Çadırın pəncərəsindən od, tüstü görünür.**

**Yaralı zabit oturduğu çarpayıdan qalxıb əlindəki əsaya söykənərək axsaya-axsaya pəncərəyə sarı gedir. Bir xeyli pəncərədən uzaqlara baxıb geri qayıdır, səhnənin ortasında dayanır. Başını çevirib bir küncdə namaz qılan əsgərə baxır. O, namazı bitirər-bitirməz zabit dillənir:**

**Zabit:** Nə zaman gələcək dəhşətin sonu?
Xaliqin özü də bilməyir bunu.

**Dindar (namazı bitirərək ayağa qalxır):**
Küfr etmə, qardaşım, hövsələn olsun,
Dözümlük piyalən səbr ilə dolsun.
Tanrımız sevəndi səbir edəni,
Haqqa itaətlə düz yol gedəni.

**Zabit:** Nə, səbir? Əzizim, səbir dedin sən?
Yoxsa ki, sən mənə rişxənd edirsən?
Səbrim tarımlanıb həddi aşıbdı,
Dəc kasam ağzından tamam daşıbdı.

Xəbislər əlindən xalqım xeyratda,
Mızılıq yaraşmaz bizə həyatda.
Dözümlük, yəni ki, həqarət, qulluq,
Budur o Tanrıdan bizə buyuruq?
Yağı Vətənimdə çapa salıbdır,
Ulu Qarabağı tamam alıbdır.
Müqəddəs torpağım alışıb yanır,
Nacinslər nə məscid, nə məzar qanır.
Naməhrəm, namərdlər bilmir mərhəmət,
Uşağa, qocaya etmirlər hörmət.
Tanklarla yalınəl millətə yerir,
İstisna etmədən işgəncə verir.

**Dindar:**– Demədim qul olaq, əstəğfirullah,
Taleyi həll edən yalnız tək Allah.
Yaradan önündə biz aciz, fəqir,
Gəl onun hökmünə olağın həqir.
Bəzən təhlükədən bizi qurtaran
Bir sonsuz qüdrət var – münif yaradan .
Ümidsiz bir kəsin ümid, dayağı,
Olsa da həmin kəs mürtəd, bayağı,
Nə vaxtsa bəlaya giriftar ola,
Sidq ürək, ixlasla yalvara Ona --
O Qadir yaradan mərhəmət edər,
Nadimin səcdəsi getməz heç hədər.
Rəhimli, qüdrətli, kəramətli haqq

Tökdürməz qanları bu qədər nahaq.
Dost olar biz ona gətirsək iman,
Dar gündə həmişə yetirər aman.
Zülmətdən çıxarıb işığa tərəf
Götürər, çıxmasaq ona naxələf.
Bunu belə deyib Yaradan özü,
Səmavi kitabda belədir sözü.
Ruhlara çox olan böyük təsiri,
Quranın gəl olaq kölə, əsiri.

**(Əlindəki Quran kitabını öpüb alnına qoyur, sonra iki əli ilə sinəsinə basır)**
Müqəddəs bu kitab Rəsul töhfəsi,
Gəlir hər kəlmədən onun nəfəsi.
Bu varlıq bir vəhydir bizə Tanrıdan,
Bəşərə bəxş edib onu Yaradan.
Hidayət məqsədi daşıyır kitab,
Səadət tapacaq kim etsə xitab.
Mənəvi bir saflıq o bulacaqdır,
İlahi hifzində hey duracaqdır.
Həm özü, həm sözü sirrli möcüzə,
Onu oxuduqca nur yağır üzə.
Etmədən tərəddüd heç bircə ani
Önündə baş əyir müslüm, nəsrani.

**Zabit: -**
Yox, mən nə kafirəm, nə də mürtədəm,
Tanrıma mömінəm, xalqıma həmdəm.
Dinə baş əyirəm necə müsəlman,
Allaha əhdim var, məzhəbə peyman.

**Dindar:** Mömin o şəxsdir ki, üsuli-dini
Sevir, əməl edir ona hər günü.
Ürəkdən vurulur, inanır, bilin,
Bütün əməlinə Firuidinin.
Mömin olanlarda fəzilət olar,
Rəhimdən don geymiş bir xislət olar:
Pərxaşlıq, çətində vüqarlı ola,
Təşvişə düşməyə, hey mətin qala:
Yetərsə xalqına bir ağır qəza,
Çəkməyə ahu-zar, etməyə əza;
Rahatlıq, asayiş vaxtları belə,
Şükr edib özünü o ala ələ.
Yolunu azmaya, tüğyan etməyə,
Əndaza gözləyib kənar getməyə.
Nemət bəxş edənin kimliyin bilə,
Əmrinə, nəhyinə riayət edə;
Düşməyə nalayiq işlərə belə,
Haramlıq, nadanlıq demirəm hələ.
Əksinə, olmalı möhkəm imanı,
Ki, yola gətirə yoldan azanı;
Fəqirə, yazığa ürəyi əsə,
Zülm-əzab bilməyə rəva heç kəsə;
İşləyə, çalışa, görə əziyyət,
Olmaya naməqbul maddi vəziyyət;
Namazı, orucu o bilə vacib,
Fərlidir bədənə, bu əməl-nəcib.
İbadət edən kəs olmaz tüfeyli,
Nəqafil işlərə heç olmaz meyli;
Özünə nümunə bilib Əlini,
Uzada yoxsula yardım əlini;
Qırmaya heç qeybət, olmaya hədyan,
Həqarət etməyə, saf ola hər an.
Əxlaqla qorunsun İslam şərəfi,
Götürsün sədası hər bir tərəfi.
Pakizə əməllə dinə səsləyə,
Kafir də İslama rəğbət bəsləyə.

**Zabit:** Razıyam, dinimiz şərafətlidir,
Onun hər kəlamı çox hikmətlidir.
Kamillik zirvəsi olan bu Quran
Əxlaqi saflığa çağırır hər an.
Mənəvi əxlaqsız olsa qurumu,
Zor olar ölkədə xalqın durumu.
Hərc-mərclik baş alar, xaos yaranar,
Millət bir-birilə kobud davranar.
Bunları dərk edib anlayan gündən,
İnsanın özü də bunu bilmədən,
İnamın, imanın ardınca getmiş,
Fövqəl bir qüdrətə pərəstiş etmiş.

**Dindar:** Qanunlar toplusu qutsal Qurana
Tabe olan hər kəs yetər imana.
Onda xoşbəxt olar həyatda adam,
Cəmiyyət yetişər tərəqqiyə tam.

**Zabit:** Xilqətdən əxlaqı təmiz bu millət
Qanuna mütidir, edir riayət.
Hər yansa hərc-mərclik, hər yan ədavət,
Xalqım sitəm çəkir, hanı ədalət?
Əzabdan qıvrılan o gəncə bir bax,

**(Bir küncdə uzanmış gəncə işarə edir)**
İşkəncə içində çəkir nalə, ah,
Qeyzindən az qala alışıb yana,
İçində bir duyğu gəlir tüğyana.

**(Gənc çarpayıda qıvrılıb o yan-bu yana çevrilir, ah-zar edir. Şəfqət bacısı əlində nimçə, qaşıq, həblər zorla onu yedirmək, dərmanlarını içirmək istəyir).**

**Şəfqət bacısı:**
Bu həbi, dərmanı iç, inad etmə,
Məlhəmdi yarana, onu rədd etmə.

**Gənc: (durub çarpayıda oturur)**

O həbi içərəm, ay anam-bacım,
Onunla dəf olsa bu ağrım-acım
Olaram dünyanın ən bəxtəvəri,
Yaralı könlümə olsa bəhəri.

**Şəfqət bacısı:**
Bu həblər de görüm bəs nə üçündür?
Nuş eylə, onlar ki, cismin gücüdür.
İçərsən dərmanı gələrsən hala,
Duymazsan ağrını, sağalar yara.

**Gənc: (çarpayıdan qalxaraq)**

Mənim yaralarım sağalmaz, bacı,
Bəxtim qapqaradır, taleyim acı.
Əlacsız solacaq könül biçarə,
Axtarıb tapmazlar təbiblər çarə.
Hələlik cavanam, hələ nə yaşım,
Tale pəmbəcəli indidən başım.

**(şəfqət bacısına söykənərək irəli çıxır)**

Bir gecə yağılar etdilər həmlə,
Doldu könül mülküm kədərlə, qəmlə.
Allahdan-Tanrıdan etməyib ayıb,
Əslimi-nəslimi etdilər qayıb.
Bu yaram heç zaman qaysaq bağlamaz,
Könlüm inlədikcə anam ağlamaz.
Bu dərd ki, sinəmdə çalın-çarpazdı,
Üstünə dərd artdı, sanki bu azdı.
Cəlladlar axışıb kəndimə doldu,
Qançəkər o torpaq qaniçər oldu.
Bir yönsüz-yöndəmsiz, saqqalı sığa
Seyizlik edirdi nadürüst dığa.
Nüfusun başında o turp əkirdi,
Zülmə fərac verib qəgqəh çəkirdi.
Vuraraq alnına tüfəng qundağı,
Gəlinin əlindən körpə qundağı
Qoparıb tifili odlara atdı,
Ananın harayı göylərə çatdı.
Gözümün önündən getmir bu vəhşət...

**Zabit**: Eh, nə vaxt olacaq bizlərdə vəhdət?!

**Dindar:** Xalqımız tapmalı birlik, vəhdəti,
Birlik səadətin ümdə adəti.
Həyatda bu tərzi ilk öncə gərək
Allahla ünsiyyət yolunda görək.
Təvəkkülə ümid bəsləsə millət
Məsud bir xalq olar, heç görməz zillət.

**Zabit:** Məsud anlayışı gözəl məfhumdur,
Belə məfkurədən xalqım məhrumdur.
Müdhiş əhvallıdır xalq çəkir möhnət,
Tanrı aman edib verərsə möhlət
Yığışıb, toplaşıb vahid olardıq,
Haqqın yolunda da birgə durardıq.

**Dindar:** Vəhdətlik deyil ki, cisim toplusu,
Zəkavat olası toplu ulusu.
Əqidə və istək muamiləti
Zəfərə aparar bütöv milləti.

**Zabit:** Müsəlləh olmalı bu fikirlə biz,
Ondadı gücümüz və birliyimiz.

**Dindar:** Namidar bir rəhbər gərəkdir bizə,
Vəhdətlə gətirə düşməni dizə.

**Zabit:** Bir saleh əməlli ağsaqqal gərək.
Onun ətrafında vəhdətə gələk.
Millətin rifahı ola diləyi,
Dankotək xalqına yana ürəyi.
Pərvanə çırağa toplaşan kimi
Toplaşaq, alova ataq biz kini.
Unudaq daxili çəkişmələri,
Zəfərə aparmaz nifaq elləri.
Varsa xalq içində nurlu ziyalı,
Pis olmaz heç zaman o xalqın halı.
Lazım güclü öndər, lazım istinad,
Biz ümid bəsləyək edək etiqad.

**Dindar:** Əqli istinaddan çox qabaq, inan,
Dinə və imana bağlıdır insan.
Fitridir insanın qəlbindəki din,
O dinə həmişə etiqad edin.
Fitri olmasaydı qəlbin içində,
Maddi səbəblərin çərçivəsində
Din dustaq olardı, itər-batardı,
İnsanın fitrəti daim yatardı.

**Zabit:** Yetmiş il insanın zehnini pozan,
İmandan azdırıb düzü tərs yozan
Dinsizlik ideya hakimiyyəti
Həkk edib millətə naqis niyyəti.

**Dindar:** Keçmişi, əcdadı qanıb-anmayan,
Elmi həqiqətə arxalanmayan
"Təkamül"fikirlər dinə qatildir,
Belə iddialar puç və batildir.
Tərəddüd yaradıb şübhə doğuran,
İlahi varlığı puça sovuran
Dinsizlik əbədi məğlub olası,
İmani həqiqət zəfər çalası.
Quran əxlaqını dərk edən ancaq
Tənasüb olacaq, rifah bulacaq.
Ədalət, gözəllik sevinclə dolu,
Quranda deyilmiş budur haqq yolu.

**Zabit:** Xaricdən təcavüz, daxildə nifaq,
Vətən məruz qalıb sınağa nahaqq.
Öddək komandirlər, naqqal rəhbərlər
Xalqın durumundan bixəbərdilər.
Hanı bir baş bilən, yandıran bir can,
Nə günlərə qalıb gör Azərbaycan.
Dağılıb, müflisdi iqtisadiyyat,
Böhran var, gücsüzdür bu hakimiyyət.
Rəhbər kürsülərə can atan naciz,
Mənəvi cəhətdən əksəri naqis.
Siyasət yolunda savadsız, naşı,
Döyüş sənətindən çıxmayan başı
Bu gün nazir olub, bu gün başqandır,
Cavandır, naşıdır, hələ baş qandır.
Millətin müşərrəf əyan zəkası,
Qalıbdı kölgədə, çıxıbdı pası.
Kürsüdə gədələr sürür dövranı,
Xainlər satırlar dağı, aranı.
Əskərlər bu işdə günahsız, məzur,
Etməyək məzəmmət, hər biri cəsur.
Rəşidlər şir südü əmib anadan,
Onları hifz etsin özü Yaradan.
Torpağın uğrunda cihad edərlər,
Vətəni naminə şəhid gedərlər.

**Dindar:** Cihadlıq Vətəni qorumaq demək,
Vətənin yolunda çəkməli əmək.

**Zabit:** İgidlər Allahın yolunda belə
Özünü daxilən almalı ələ.
İçində mənəvi cihad etməli,
İslamın yoluyla düzgün getməli.
Vətəni bu yolla qorumalısan,
Qanlı döyüşlərdə qazan sən ad-san.
Budur cihadlığın yüksək forması,
Vacibdir ruhunda onun olması.

(Bu zaman cərrahiyyə əməliyyatı aparan cərrəh əlcəyini çıxararaq alnındakı təri silib onlara tərəf gəlir).

**Cərrah:** Nə qədər cavanlar cihad edirlər,
Vətənin uğrunda qurban gedirlər.

**(Sanitarlara göstəriş verərək)**

Mafədən o gənci gedin götürün,
Sonra haqq yerinə onu ötürün.

**Şəfqət bacısı:** Yumuldu nagahan nəvvar gözləri,
Qaldı ürəyində pünhan sözləri.
Rəna tələtlinin söndü həyatı,
İndi ana istər deyə bayatı,
Növhələr söyləyə o bəxti qara,
Yola saçlarını, şivən qopara.
İlahı, gəl etmə gündüzü gecə,
Belə balalara qıyırsan necə?

**Dindar:**Allaha, bil asi haramdır olmaq,
Çətində gərəkdir səbirli durmaq.
Bütün müsibətdə olduğu kimi
Yesə ələm, kədər qəlbin içini
Müsəlman olan kəs mətin durmalı...

**Zabit:** (yarı rişxəndlə)
Taleyin hökmünə tabe olmalı?!.

**Dindar**: (sanki söhbətdən yayınaraq)
Ən yaxşı hədiyyə onlara bu an
Ruha rəhmət demək, oxumaq Quran.

(Gəncə yaxınlaşıb başının üstündə Quran oxuyur)

**Şəfqət bacısı:** (cərraha)
Deyirlər ölümə qarşı təbiblər
Genetik bir yolla çarə tapıblar.
Bəs nə vaxt bu üsul tətbiq olacaq,
İnsan bu həyatda daim duracaq...

**Cərrah:** İnsana əbədi həyat verməyə,
Onu bu dünyada daim görməyə
Bioloq-alimlər, həkim-təbiblər
Əbəs tədqiqatlar, cəhdlər ediblər.
İnsanın genetik kodunda, heyhat,
Bulmadı tibb elmi əbədi həyat.

(Dindar Quran oxuyub qurtarır. Sanitarlar meyidi səhnədən çıxarırlar)

**Dindar**: İrtihal olmağın əsas illəti
Əxlaq-hüququdur xalqın, millətin.

**(Davamı gələn sayımızda)**

# BƏLƏM BAURANIN ƏHVALATI

Həzrət Musa (ə) sitəmkarların diyarını fəth etmək qərarına gəlmişdi. O, Yuşə ibn Nun və öz kürəkəni Kalib ibn Yufnanın başçılığı altında böyük bir qoşunu həmin şəhərlərə göndərdi. Qoşun şəhərin mərkəzinə çatanda, yerli camaat Lut peyğəmbərin nəslindən olan Bələm Bauranın yanına gedib dedilər:

"Musa (ə) bizi bu şəhərdən çıxarmaq üçün böyük bir qoşun göndərmişdir. Bu hücumun qarşısını almaq üçün onlara nifrin etməyi səndən xahiş edirik."

Bələm Baura, "İsmi-Əzəmi" çox gözəl bilirdi. O, üzünü ətrafına toplaşan camaata tutub dedi: "Möminlərin və mələklərin Musanın (ə) ətrafına toplaşdığı bir halda Allah peyğəmbərinə necə nifrin etmək olar?"

Şəhər camaatı öz dediklərindən əl çəkmir, Bələm Baura isə onların xahişini rədd edirdi. Axırda şəhər ağsaqqallarından bir neçə nəfər qiymətli hədiyyələrlə Bauranın arvadının yanına gedib, ərini (Bauranı) bu işə (Musaya (ə) və onun qövmünə nifrin etməyi) razı salmağı xahiş edirlər. Qadın gətirilən hədiyyələri qəbul edib bu işə əncam qılacağını söz verir.

Bələm Bauranın arvadı öz ərinə bu haqda söz açanda o yenə də razı olmadı. Arvadının əl çəkməyəcəyini görən Baura Allahla məşvərət (istixarə) etmək qərarına gəlir və Allahdan bu işdə ona yol göstərməsini istəyir. Yuxuda ona bu işi görməyi (nifrin etmək) qadağan edirlər. Baura istixarəsinin cavabını arvadına deyəndə qadın əl çəkməyib ondan ikinci dəfə istixarə etməsini istəyir. Amma Bələmin ikinci istixarəsi cavabsız qalır.

Sonda arvadının yağlı dilinə aldanan Baura bu işi görməyə razılıq verir. Bələm eşşəyə minib Musa (ə) və onun qövmünə nifrin etmək üçün Bəni-İsrail yaşayan məntəqəyə yaxın olan dağa üz tutdu. Dağa yaxınlaşdığı vaxt eşşək yerindən tərpənmir. O, zavallı heyvanı o ki, var döyür. Eşşək bir az yol gedib yenə də dayanır. Bələm üçüncü dəfə eşşəyi döyəndə Allah-təala dilsiz heyvanı dilə gətirib danışdırır:

"Vay olsun sənə ey Bələm! Məgər görmürsənmi ki, mələklər məni geri qaytarır?"

Zavallı heyvan elə oradaca ölür. Bələm isə piyada yoluna davam edir. Bəni-İsrail yaşayan məntəqəyə çatdıqda Musa (ə) və onun qövmünə nifrin etmək istədi. Amma dilinə duadan başqa bir kəlam gəlmədi. Əksinə, öz şəhər camaatına dua etmək istəyəndə dilinə ancaq nifrin gəldi. Ondan bu haqda soruşanda belə cavab verir: Allah-təala bizi imtahana çəkməklə alçaltdı. Elə bu vaxt susuz itlər kimi dili çölə sallandı. O, bu görkəmindən də ibrət almayıb dedi:

"Artıq dünya və axirətim əldən getdi. İndi isə hiyləgərlikdən başqa çıxış yolu yoxdur." Onun əmrilə şəhərin bütün qadınlarını zinət əşyalarıyla bəzəyib, alış-veriş adıyla Həzrət Musanın (ə) qoşununa tərəf göndərdilər. Həmçinin, qadınlara onlarla cinsi əlaqədə olmaq istəyən əsgərlərə mane olmamaq tapşırığı verilmişdi. Bələmin dediyinə görə əgər Musanın (ə) qoşunundakı əsgərlərdən heç olmasa biri zina etsə, bu onların sonu demək idi.

Bələmin tapşırığıyla qadınlar qoşunun içərisində gəzib dolaşmağa başladılar. Züməri ibn Məşlum həmin qadınlardan birini Musanın (ə) yanına gətirib deyir:

"Belə fikirləşirəm ki, bu qadınla yaxınlıq etməyin mənə haram olduğunu deyəcəksən. Amma and olsun Allaha, bu işdə sənə itaət etməyəcəyəm." Sonra həmin qadını öz xeyməsinə aparıb onunla yaxınlıq edir.

Bu günahın (zina) əvəzində Allah-təala Musanın (ə) qoşununu taun xəstəliyinə düçar etdi. Musanın qoşununa rəhbərlik edən Harun oğlu Fənhas ibn İzar həmin vaxt orada olmamışdı. Qayıdarkən qoşundakı bütün əsgərlərin ölümcül taun xəstəliyinə tutulduğunu görən Fənhas ibn İzar bunun səbəbini soruşanda, baş verənlər haqqında ona danışırlar. O, çox qeyrətli və şücaətli bir adam idi. Zumərinin xeyməsinə gedəndə artıq onun (Zuməri) həmin qadınla qanunsuz yaxınlıq etdiyini görür. Fənhas onların hər ikisini bir nizə ilə öldürür.

Həmin saata qədər Musanın (ə) qoşunundakı 20 min əsgərin bu xəstəliyə yoluxaraq ölməsinə baxmayaraq, Zumərinin ölümündən sonra taun tamamilə aradan gedir. Allah-təala Bələm Baura haqqında bu ayəni nazil etdi:

"Onlara öz sirlərimizi (İsmi-əzəmi) öyrətdiyimiz adamın əhvalatını danış ki, bizim itaətimizdən çıxdığı üçün verdiyimizi ondan geri aldıq və şeytan onu tamamilə yolundan azdırdı." ("Biharül-ənvar", 13-cü cild, səh. 373.)

Həzrət İsa (ə) buyurmuşdur: "Naməhrəm qadınlara baxmaqdan pərhiz edin (çəkinin). Çünki bu əməl şəhvət odunun alovlanmasına və sonda insanın həlakət uçrumuna yuvarlanmasına səbəb olur.

("Mizanul-hikmət", 10-cu cild, səh. 71.)

# NAMAZI ƏVVƏL VAXTDA QILMAĞA DAİR İBRƏTAMİZ ƏHVALAT

Maşının radiosundan azan səsi eşidilirdi. Yanımda oturan cavan oğlan ayağa qalxdı və sürücüyə tərəf getdi. Ona dedi: “Ağacan! Namaz qılmaq istəyirəm!” Sürücüsü etinasız halda dedi: “Get, bala, indi nə namaz qılmaq vaxtıdır ki?” Ancaq cavan ciddi halda dedi: “Sənə deyirəm ki, saxla!” Sürücü başa düşdü ki, o, çox ciddidir. Dedi: “Bura namaz qılmaq yeri deyildir. Səhranın ortasıdır. Qoy bir şəhərə və ya bir dayanacağa çataq. Sonra saxlayaram”. Xülasə cavan əl çəkmədi və sürücü saxlamağa məcbur oldu. Cavan aşağı düşdü və namazını sakit və aram halda qılmağa başladı. Mən də ondan təsirlənib namazımı qıldım. Namazdan sonra bir-birimizin yanında əyləşdik. Maşın hərəkət etdi və mən ondan soruşdum: “Namazınızı əvvəl vaxtda qılmağınıza nə səbəb oldu?” Dedi: “Mən İmam Zaman ağaya (ə.f) söz vermişəm ki, namazı əvvəl vaxtda qılacağam”. Mənim təəcübüm artdı. Dedim: “Necə?” Nəyə görə belə bir söz vermisən?

Dedi: “Mən Avropa ölkələrindən birində təhsilimi davam etdirirdim. Neçə il idi ki, orada idim və qaldığım yer kiçik bir məntəqədə idi. İnstitutun yerləşdiyi yerdən uzaq idi. Çox vaxt bu yolu maşınla gedirdim. Burada ancaq bir avtobus işləyirdi. Diplom almağım üçün axırıncı imtahanı verməli idim. Uzun çətinlikdən, intizardan və qürbət acısından sonra həmin gün gəlib çatdı. Dərslərimi yaxşı oxumuşdum. Axırıncı imtahan üçün avtobusa minmək istəyirdim. Bir neçə dəqiqədən sonra içərisi insanlarla dolu olan avtobus yola düşdü. Mən kitabı açıb oxuyurdum. Yolun yarısını getmişdim ki, avtobus söndü. Sürücü aşağı düşdü və kapotu açdı. Motora bir qədər baxdı və sonra nəyisə etməyə başladı. Gəldi və maşını işə salmağa çalışdı, ancaq maşın işə düşmədi. Bir neçə dəfə təkrar etdi, ancaq faydası olmadı. Avtobusda olanlar aşağı düşdü və dayanacaqda oturub gözləməyə başladılar. Mənim ürəyim döyünürdü və imtahan həyəcanım artırdı. İmtahana az vaxt qalmışdı. Yolda başqa bir nəqliyyat vasitəsi tapmırdım. Çox nigaran və ümidsiz idim. Şəhərə qədər də yol çox uzaq idi və mən bu yolu piyada gedə bilməzdim. Bir neçə addım gedirdim və arxaya baxıb maşın axtarırdım. Bütün bir illik zəhmətim hədər gedirdi.

Birdən xatırladım ki, nə zaman çətinliyə düşsək, İmam Zaman ağaya (ə.f.) təvəssül edərdik. Elə bu yerdə ağlamağa başladım. Öz-özümə dedim: “Ya Bəqiyətillah! Əgər məqsədimə çatmağıma kömək etsən, söz verirəm ki, ömrümün axırına qədər namazımı əvvəli vaxtda qılacağam”. Bir qədər keçən kimi bir sürücü gəlir və avtobusun sürücüsündən soruşur ki, nə olub? O da cavab verir ki, bilmirəm. Həmin adam deyir ki, get, indi maşını işə sal. Sürücü bir neçə dəfə çalışır və nəhayət maşın işə düşür. Hamı sevinir və maşına minir. Məndə ümid oyanır və maşına minirəm. Avtobus tərpənmək istəyəndə həmin kişi avtobusa qalxdı və məni adımla səslədi və dedi: “Bizə verdiyin vədini yaddan çıxartma. Namazı əvvəli vaxtda qıl!”. Sonra maşından düşüb yox oldu və mən onu görə bilmədim. Başa düşdüm ki, bu şəxs Ağa (ə.f.) idi. O qədər göz yaşı tökdüm ki, mən nə qədər qəflətdə olmuşam. Bu, mənim namazı əvvəli vaxtda qılmağımın macərasıdır”.

# ŞƏQİQ BƏLƏXİDƏN İBRƏTAMİZ ƏHVALAT

“Ruhul bəyan” təfsirində yazılır: “İlahi övliyalardan olan Şəqiq Bələxinin üç gün idi ki, yeməyə heç bir şeyi yox idi. İlahi övliyalar çox səbirli insanlar idilər. Gözəl əxlaqa malik idilər. Bu əxlaq Peyğəmbərlərdə (ə) də var idi. Əgər işlərindən nə isə əldə edirdilərsə, onu xərcləyərdilər, yeyərdilər, geyinərdilər və deyərdilər: “Əlhəmdulillah əla haza nəmə”. Əgər heç nələri olmasa da deyərdilər: “Əlhəmdulillah əla kulli hal”. Allah istəməmişdir, verməmişdir. Ona görə də olanda da əziyyət çəkməyiblər, olmayanda da. Hər ikisi onlar üçün bərabər olmuşdur.

Deyirlər ki, bir gün Müaviyənin (lən) kefi kök idi. Ətrafındakılara deyir ki, mən üstünəm, yoxsa Əli ibni Əbu Talib? Dedilər: Sən. Dedi: Yalan deyirsiniz. Əli ibni Əbu Talib məndən çox üstündür. Mən sizə Əlinin (ə) dəyərlərindən birini sizin üçün deyim ki, nə məndə var, nə də sizdə. Əgər qızıl və gümüşdən və samandan olan iki anbarın qapısını Əlinin (ə) üzünə açsalar, Əliyə (ə) desələr: Bu iki anbar səninkidir. Deyər: Bu iki anbarı Allah yolunda yoxsullara paylayın. Bu iki anbarda olanlar onun üçün eynidir. Amma mənlə siz belə deyilsiniz. Niyə yalan deyirsiniz ki, mən Əlidən (ə) üstünəm?

Şəqiq Bələxi üç gün yeməyə bir şey tapmır və su ilə qarnını doydurur. Üçüncü gün əlini qaldırıb, deyir: “Allahım! Üç gündür ki, heç bir şey yemirəm. Enerjim azalıb və düzgün ibadət edə bilmirəm. Nə edim?”

Həzrət Peyğəmbər (s) də bir neçə gün olurdu ki, yeməyə bir şey tapmırdı və namazı oturub qılırdı.

Şəqiq elə bu duanı edən zaman bir nəfər gəlir və onun çiynindən vurub deyir: “Sən kimsən?” Deyir: “Allahın bəndəsi”. Deyir: “Adın nədir?” Deyir: Şəqiq. Deyir: “Qalx və mənim ardımca gəl”. Şəqiq görür ki, böyük bir otaqda süfrə açılıb və orada hər şey var. Dedi: “Allaha deyirdin ki, nə edim, O, da yetirdi. İndi otur və ye”. Şəqiq deyir: “Mənim çox şeyə meylim yoxdur. Bir-neçə tikə yesəm, bəsimdir”. Dedi: “Allaha ibadət etmək istədiyin qədər ye”. Yeyir və deyir: “Allaha şükür olsun ki, indi ayaq üstə namaz qıla biləcəyəm”.

**Onlar dünyada bu cür yaşayırdılar.**

Şəqiq sonra dedi: “Doydum”. Həmin adam dedi: “Onda otur, səninlə işim var. Adını deyəndə səni tanıdım. Mən atanın işçisi olmuşam. Atan ölən zaman hələ böyüməmişdin. Bu ev içindəki əşyaları ilə bir yerdə atanın malıdır. Mən onu əmanət saxlayırdım. Sən böyüyəndə səni tapmadım, bu gün də təsadüfən tapdım. İndi burada olan xidmətçilər və bu ev sənindir”. Şəqiq dedi: “Mənim dünya malına əlaqəm yoxdur. Bu evi və içində olanları özün və bu xidmətçilər arasında böl. Onları azad et. Mənim işim isə ibadətlədir. Bu yemək də bir neçə gün bədənimə bəsdir ki, ayaqda dura bilim. Əgər bəs etməsə yenə də oturub Onunla dərdimi bölüşəcəyəm. Yenə də sənin kimisi gələr və çiynimdən vurub, yemək yeməyə aparar”.

Əlbəttə, bu sözlərin mənası o demək deyildir ki, heç kim iş görməsin və sənəti dalınca getməsin. Halal ruzi qazanmaq on ibadətin doqquzu sayılır. Bu sözlər ona görə deyilib ki, biz dünya malına qarşı həris olmayaq və paxıl olmayaq.





# SƏHLƏ MƏSCİDİ

**Əbu Bəkr Xəzrəmi rəvayət edir: «İmam Baqirə (ə) dedim: «Allahın hərəmi (Məscidül-həram) və Peyğəmbərin hərəmindən (Məscidün-Nəbi) sonra hansı məkan fəzilətlidir?» Buyurdu (ə): «Ey Əbu Bəkr! Kufə pak və müqəddəs bir şəhərdir. Orada rəsul və nəbi peyğəmbərlərin, onların əməlisaleh canişinlərinin qəbirləri yerləşir. Bundan başqa, Səhlə məscidi də mübarək bir məsciddir. Hər bir peyğəmbər orada namaz qılmışdır. İlahi ədalət orada bərpa olunacaq, Tanrı qiyamçısı orada baş qaldıracaq və onun ardınca digər qiyamçılar da ayağa qalxacaqlar. Orada peyğəmbərlərin, onların canişinlərinin və əməlisaleh insanların evləri yerləşir.»**

İmam Sadiq (ə): «Çətinliyi olan hər bir kəs Səhlə məscidinə gəlib, orada məğrib və işa namazları arasında iki rəkət namaz qılaraq Tanrıdan yardım diləsə, Allah-Təala onun çətinliyini həll edər.

İmam Sadiq (ə): «Kufədə «Səhlə» adlandırılan bir məscid var. Əmim Zeydin oraya yolu düşəndə, bu məsciddə namaz qılıb, Allaha pənah aparardı. Allah-Təala iyirmi il onu qorudu. Bu məscid, atlının (Xızırın (ə) endiyi yer və İdris peyğəmbərin (ə) evidir. Ona hər dəfə bir çətinlik üz gətirəndə, bu məscidə gələrək, məğrib və işa namazları arasında (müstəhəb) namaz qılar, Tanrıya yalvarardı. Allah-Təala da onun bütün çətinliklərinə yol açardı.»

Əbdür-Rəhman ibn Kəsir rəvayət edir: «İmam Sadiqin (ə) Əbu Həmzə Somaliyə belə buyurduğunu eşitdim:

– Ey Əbu Həmzə! Əmim Zeydin gecələr (ibadət etmək üçün) ayağa qalxdığını görmüsənmi?

Dedi:

– Bəli.

– Süheyl məscidində namaz qılırdı?

– Süheyl məscidi haradadır? Məqsədiniz Səhlə məscididir?

– Bəli. Əgər orada iki rəkət namaz qılıb Allaha pənah aparsaydı, bir daha onu qoruyardı.

– Atam-anam sənə qurban olsun! Bu Səhlə məscididirmi?

– Bəli. İbrahimin evi oradadır. O Həzrət (ə) buradan Əmaliqəyə sarı yola düşdü. İdrisin (ə) də dərzilik etdiyi ev oradadır. Bu məsciddə yaşıl bir qaya vardır ki, bütün peyğəmbərlərin rəsmləri oradadır. Allah-Təala bütün peyğəmbərləri bu qayanın altındakı torpaqdan yaradıb və Merac da oradadır.

Əla ibn Rəzin rəvayət edir: «İmam Sadiq (ə) mənə buyurdu: «Sizin yaxınlığınızda yerləşən «Səhlə», bizim isə «Şəra» dediyimiz məsciddə namaz qılırsanmı?» Dedim: «Bəli, sənə qurban olum. Orada namaz qılıram». Buyurdu (ə): «O məscidə get. Çətinliyi olan (dua edib, hacət diləmək üçün) oraya getsə, elə bir çətinlik yoxdur ki, (o, həll olmasını istəsin, amma) Allah-Təala onu dəf etməsin. Orada bir daş vardır ki, üzərinə bütün peyğəmbərlərin və onların canişinlərinin adları yazılıb.»

İmam Sadiq (ə): «Kufəyə daxil olduqda Səhlə məscidinə get və orada namaz qılıb, Allah-Təaladan mənəvi və dünyəvi hacətlərini istə. Səhlə məscidi İdrisin (ə) namaz qıldığı və dərziliklə məşğul olduğu evdir. Kim orada Allaha sevdiyi şəkildə dua etsə (yaxud istədiyi hacəti diləsə), Allah onun diləyini qəbul edər və Qiyamət günü onu uca məqamlara, hətta İdris (ə) peyğəmbərin məqamınadək ucaldar. Dünyadakı çətinliklərdən və düşmənlərinin şərrindən amanda saxlayar.»

İmam Sadiq (ə): «Bu məscid (Səhlə məscidi) bizim sahibimizin dostları ilə birgə qiyama qalxdığı vaxt (yerləşəcəyi) məkandır.»

Əbu Bəsir rəvayət edir: «İmam Sadiq (ə) buyurdu: «Ey Əba Məhəmməd! Sanki indi Qaimin (ə.c.) öz ailəsi ilə birlikdə Səhlə məscidində yerləşdiyini görürəm». Soruşdum: «Ora Onun mənzilidirmi?» Buyurdu (ə): «Bəli, ora İdrisin (ə) də mənzilidir. Allah-Təalanın göndərdiyi bütün peyğəmbərlər orada namaz qılıb. Kim orada qalsa, sanki Allahın Rəsulunun evində qalıbdır. Hər bir mömin kişi və qadın oranı sevər. Hər gecə-gündüz Tanrı mələkləri oraya sığınıb, ibadətlə məşğul olurlar.

Ey Əba Məhəmməd! Əgər mən sizə yaxın olsaydım, bütün namazlarımı o məsciddə qılardım. Bizim Qaim (ə.c.) qiyama qalxdıqda, Allah-Təala, Peyğəmbərinin (s) və bizim hamımızın intiqamını (düşmənlərimizdən) alacaq.»

# *İmam Əlinin (ə) son vəsiyyəti*



*“Bismilləhir-Rəhmanir-Rəhim!*

*Bu, o vəsiyyətnamədir ki, Əli ibni Əbutalib (ə) onu vəsiyyət edir. Şəhadət verirəm ki, Allahdan başqa məbud yoxdur və şəriki yoxdur. Həmçinin şəhadət verirəm ki, Muhəmməd (s) Onun bəndəsi və Rəsuludur. Allah onu haqq dininə hidayət etmək üçün göndərmişdir ki, bütün dinlərə qalib etsin. Baxmayaraq ki, müşriklər onu xoş qarşılamırlar, Allahın salam və bərəkəti olsun ona!*

*Həqiqətən, mənim namazım, pərəstişim, həyatım və ölümüm Allahdandır ki, aləmlərin Pərvərdigarıdır. Onun şəriki yoxdur və mən ilk müsəlmanlardanam.*

*Ey Həsən! Mən səni, bütün övladlarımı və nəslimi və bu vəsiyyətnamənin çatdığı hər bir kəsi sizin Pərvərdigarınız olan Allahdan qorxmağa və təqvaya dəvət edirəm. Gərək müsəlman olmamış ölməyəsiniz. Hamınız İlahi kəndirdən yapışın və dağılmayın. Çünki həqiqətən, mən Allahın Rəsulundan (ə) eşitmişəm ki, buyurub: “İnsanların arasını islah etmək - bütün namaz və orucdan yaxşıdır. O şey ki, dini məhv edər, insanların arasında olan fəsaddır. “Lə həvlə vəla qüvvətə illə Billahil-Əliyyil-əzim”.*

*Qohumlarınıza diqqət edin və onlarla sileyi-rəhm edin ki, Allah Qiyamət günü hesabı sizə asan etsin.*

*Allahdan qorxun, Allahdan qorxun, yetimlərə görə. Ürəyinizin daşlaşmasına mane olaraq onlardan ehsanı əsirgəməyin.*

*Allahdan qorxun, Allahdan qorxun, qonşularınıza görə. Rəsulallah (s) onlara görə tövsiyə etmişdir. Belə ki, biz güman edirdik ki, qonşu qonşudan irs aparır. Onların hörməti o qədər böyükdür ki, malından onlar üçün pay ayırmışdır.*

*Allahdan qorxun, Allahdan qorxun, Qurana görə. Məbada kimsə ona əməl etməkdə sizi qabaqlayar.*

*Allahdan qorxun, Allahdan qorxun, Allahın evinə görə. Məbada hələ ki, sağsınız, o ev sizdən boş qalsın. Əgər boş qalsa, möhlət verilməz. Əzaba düçar olarsınız, əgər sizdən boş qalarsa, İlahi əzab həyatınıza fürsət verməz.*

*Allahdan qorxun, Allahdan qorxun, malınızın zəkatını verən zaman. Zəkat İlahi qəzəbi yatızdırar.*

*Allahdan qorxun, Allahdan qorxun, Ramazan ayının orucuna görə. Çünki o, sizin üçün cəhənnəm atəşindən yaxşı qalxandır.*

*Allahdan qorxun, Allahdan qorxun, yoxsullara görə. Onları həyatınıza şərik edin, yeyəcək və geyəcəklərinizdən onlara verin.*

*Allahdan qorxun, Allahdan qorxun, Peyğəmbərinizin (s) ümmətinə görə. Məbada aranızda zülm olsun.*

*Allahdan qorxun, Allahdan qorxun, Peyğəmbərin (s) səhabələrinə görə. Çünki Rəsulallah (s) onlara görə tövsiyələr vermişdir.*

*Allahdan qorxun, Allahdan qorxun, əlinizin altında olanlara, kəniz və nökərlərinizə görə. Çünki Peyğəmbərin (s) son tövsiyəsi bu idi ki, buyurub: “Mən sizə əlinizin altında olan iki gücsüzü sifariş edirəm”.*

*Namaz, namaz. Hər kim sizə zülm etsə, ya pis düşüncədə olsa, Allah ona kifayət edər.*

*İnsanlarla gözəl danışın, necə ki, Allah buyurub.*

*Əmr be-məruf və nəhy-əz-munkəri tərk etməyin. Əks halda hər nə dua etsəniz, Allahdan şəri dəf etməsini istəsəniz, qəbul olmayacaqdır.*

*Zinhar olsun ayrılıqdan, təfriqədən, dağınıqlıq və bir-birindən üz döndərməkdən.*

*Bir-birinizin yardımçısı olun. Günah və zülmdə kömək etməyin ki, Allahın əzab və işgəncəsi çox ağırdır.*

*İndi sizinlə vidalaşıram və sizi Allaha tapşırıram”.*

*Həzrət (ə) vəsiyyət edəndən sonra davamlı olaraq “Lə İləhə illəllah” deyir və müqəddəs ruhunu tapşırır.*

Elə bir bəxşi-Xudadır bizə dünyadə namaz,
Verər əcrin nə ki dünyadə, həm üqbadə namaz.

Gör necə kamına çatdırdı Rəsulullahı,
Yetdi dərgahə qılıb "Leylətül-əsradə" namaz.

Gözümün nuru namazdır, dedi Peyğəmbərimiz,
Bu səbəbdən qətidir hər günü fərdadə namaz.

Gör namaz üstə necə Həzrət Əli oldu şəhid,
Yazaraq ahı ilə ərşi-müəllədə namaz.

Kərbəladə boyanıb qanə Hüseyn təşnə susuz,
Qan ilə aldı vüzu, qıldı o səhradə namaz.

Kim ki, səccadəyə diz vurdu ədəb sahibidir,
Mərifətlə qılınar çünki müsəllədə namaz.

Bu elə elmdi kim fəhmlə baxsa görəcək,
Ənbiyalar da qılır səhfeyi-dəryadə namaz.

Namazın şənini vəsf etməyə qadir deyiləm,
Bəzənir xofü rəca bir də ki, təqvadə namaz.

Sovmü həcc, xümsü zəkat, əmrü təvəllavü cihad,
Çün əda oldu bizə nəhyü təbərradə namaz.

Alnını səcdəyə qoy, üzmə Əlidən əlini,
Yetəcəkdir qəbula türbəti-əladə namaz.

Eşqilə eylə sücud torpağa, sabitqədəm ol.
Soltanın qəsdi budur pənd ola övladə namaz.

Hacı Soltan Əlizadə

IMAN.GE
IMANMEDIA.GE
IMANFOTO.COM
SUALCAVAB.GE
ISLAMMOBILE.BIZ

*Təsisçi: "İman" mədəni maarif mərkəzi*
*Redaktor: Ramin İgidov*

*Məsul katib: Elvin Bayramov*
*Kompüter dizaynı: Nəqi Cəlilxoca*

*Ünvan: Tbilisi, Mçxeta küç.№4*

*Qəzetin səhifələrində Quran ayələri və hədislər dərc olunduğuna görə, pak yerdə saxlanmasını xahiş edirik.*